www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 16-18 avqust 2025-ci il Şənbə № 144 (8754) Qiymət 60 qəpik

**Xəbər**

## SOS: Avtobus sürən narkoman sürücülər - Əhaliyə çağırış

yazısı səh.14-də

**Gündəm**

### Bakı və İrəvan arasında ilk - Amma hansı xəritə ilə?



İki ölkə şərti sərhədləri dəqiqləşdirməyə başlayır - Ermənistana xəbərdarlıq

yazısı səh.5-də

### Zəngəzur dəhlizi üçün 2 şok ssenari

yazısı səh.4-də

### Tramp-Putin görüşü: ABŞ-ın səbri Alyaskada bitəcək?

yazısı səh.3-də

### "Rusiya o halda Güney Qafqaza girəcək..." - Sensasion iddia

yazısı səh.8-də

### Banklardan əhaliyə zərbə: bu pullar qaytarılmayacaq

yazısı səh.11-də

### Putinin adamının müəmmalı İran səfəri - Bakıya qarşı oyun?

yazısı səh.6-da

### NATO tipli orduya keçid - Azərbaycan yolun sonunda

yazısı səh.5-də

### Azərbaycan-Rusiya danışıqları başlayır - Səbəb

yazısı səh.6-da

### Moskva "Tramp yolu"nu dəstəklədi

yazısı səh.8-də

### Ölkədə yeni sistem - Borclular üçün qaçış yolu bağlanır

yazısı səh.12-də

### Azərbaycan selektiv abortda Çini də üstələyir

yazısı səh.14-də

### Başçını ittiham edən qohumu barədə qərar verildi

yazısı səh.11-də

# PAŞİNYAN "EV TAPŞIRIĞI"NIN İCRASINA BAŞLADI - ƏLİYEVİN O TƏLƏBİ...

İrəvanda Konstitusiya İslahatı Şurası uzun fasilədən sonra iclas keçirib - Ermənistan Azərbaycanın son şərtini yerinə yetirmək hazırlığında

yazısı səh.7-də




## İran naxçıvanlılardan "Tramp marşrutu"nun heyfini çıxır

Bakıya yük daşıyan sürücülərimiz qonşu sərhəddə incidilir; dövlət agentliyindən və deputatdan xəbərdarlıq

yazısı səh.7-də



*Afaq Başirqızı:*

### "Bir azərbaycanlı ana kimi düşməni bağışlamıram"

yazısı səh.10-da



### II Qaregin hələ də ABŞ-da veyillənir - məkrli plan

yazısı səh.9-da



Səməd Seyidov

### Deputat: "Azərbaycanı və Ermənistanı təhdid edirlər"

yazısı səh.4-də

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025




## 907-ci düzəliş rəsmən dayandırıldı

**ABŞ prezidenti Donald Trampın Azadlığa Dəstək Aktının 907-ci maddəsinin Azərbaycanla bağlı fəaliyyətinin dayandırılması ilə bağlı memorandumunun mətni dərc olunub.**

Sənəddə bildirilir ki, ABŞ Konstitusiyası və qanunları, o cümlədən 2002-ci il Xarici Əməliyyatların Maliyyələşdirilməsi, İxracın Maliyyələşdirilməsi və Əlaqədar Proqramlar Aktı çərçivəsində Tramp Azadlığa Dəstək Aktının 907-ci maddəsinin dayandırılmasını təsdiqləyib. Musavat.com xəbər verir ki, memorandumda vurğulanır:

ABŞ beynəlxalq terrorizmlə mübarizə səylərini dəstəkləməlidir;

Beynəlxalq terrorizmə qarşı ABŞ Silahlı Qüvvələrinin və ya koalisiya tərəfdaşlarının döyüş hazırlığını dəstəkləmək vacibdir;

Azərbaycan sərhədlərinin təhlükəsizliyi ABŞ üçün önəmlidir;

Bu qərar Ermənistan və Azərbaycan arasında sülh yolu ilə nizamlanma danışıqlarına müdaxilə etməyəcək və Ermənistana qarşı hücum məqsədilə istifadə edilməyəcək.

Beləliklə ABŞ lideri memorandumla Azadlığa Dəstək Aktının 907-ci maddəsindən imtinanın müddətini uzadıb.

Qeyd edək ki, Tramp 907-ci düzəlişin dayandırılması haqqında fərmanı 8 avqust 2025-ci ildə imzalayıb.

## Xaçmazda faciə

**Xaçmazda kişini elektrik cərəyanı vuraraq öldürüb. Axar.az xəbər verir ki, 1966-cı il təvəllüdlü Şahid Qurban oğlu Daşdəmirov Niyazova kəndində yerləşən ona məxsus avtomobil təmiri müəssisəsinin üzərindən keçən internet naqilləri sallanaraq maşınların keçməsinə maneə yaratması səbəbindən elektrik kabelini əli ilə tutub yuxarı qaldırmaq istədikdə onu elektrik cərəyanı vurub.**

Nəticədə sonuncu çoxsaylı xəsarətlərlə Xaçmaz RMX-na daxil olaraq, sonradan ölüb. Faktla bağlı Xaçmaz rayon prokurorluğunda araşdırma aparılır.

## AMİP qurultaya hazırlaşır

**Azərbaycan Milli İstiqlal Partiyası (AMİP) qurultaya hazırlaşır. Partiyanın hazırkı sədri, deputat Arzuxan Əlizadə Pravda.az-a açıqlamasında deyib ki, qurultayın sentyabrın birinci yarısında keçirilməsi planlaşdırılır.**

"Rayon təşkilatlarında konfransların keçirilməsi ilə bağlı AMİP-nin Siyasi Şurasının qərarı var. Artıq bir çox rayon təşkilatlarında konfranslar keçirilib. Namizədliyimi irəli sürəcəyəm. Digər namizədlərimizin olması da istisna deyil. Olmaya da bilər. Qurultay günü elan olunandan sonra ərizə daxilində kim namizədliyini irəli sürmək istəyəcəksə, əvvəlcədən müraciət edəcək. Qurultayda partiya sədri ilə yanaşı, sədrin təqdimatı ilə partiyanın ali orqanları, Siyasi Şura üzvləri, Ali Məclis üzvləri, üzvlüyə namizədlər seçiləcək. Mərkəzi İntizam Komissiyası yenidən formalaşacaq".

## Nikahların sayı artıb, boşanmalar azalıb

**Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən cari ilin birinci yarısında 24815 nikah və 10350 boşanma halları qeydə alınıb.**

APA xəbər verir ki, bu Dövlət Statistika Komitəsinin yanvar-iyul ayında ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi göstəricilərində əksini tapıb.

Qeyd edilib, ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,4-dən 4,9-a qədər artıb, boşanmaların sayı isə 2,1-dən 2-yə düşüb.

## Ağdərəyə 48 ailə köçürüldü

**Respublikamızın müxtəlif bölgələrindən yola salınan növbəti köç karvanı Ağdərə rayonunun Kolatağ və Vəngli kəndlərinə çatıb.**

Axar.az xəbər verir ki, ümumilikdə 48 ailə (172 nəfər) doğma yurdlarına köçürülüb.

Onlardan 26 ailə olmaqla 89 nəfər Kolatağ kəndinə, 22 ailə olmaqla 83 nəfər isə Vəngli kəndinə yerləşdirilib.

Bununla da Ağdərə rayonunun 5 yaşayış məntəqəsinə köçürülən ailələrin sayı 407-yə (1420 nəfər) çatıb.

# Azərbaycanda 921 diplom niyə tanınmadı? - Rəsmi



**4998 gənc diplomunun tanınması üçün müraciət edib. Modern.az xəbər verir ki, AzEdu.az Təhsil Portalı mövzu ilə bağlı Elm və Təhsil Nazirliyi Təhsildə Keyfiyyət Təminatı Agentliyinə (TKTA) sorğu ünvanlayıb.**

Agentlikdən bildirib ki, 2024-2025-ci il tarixlərində Təhsildə Keyfiyyət Təminatı Agentliyinə daxil olmuş 4998 müraciətçinin 4077-si barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib. Ancaq 921 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Qeyd edilən tarixlərdə xaricdə əldə edilən kvalifikasiyaların ölkə ərazisində əsas tanınmama səbəbləri aşağıdakı kimi təsnifatlandırılıb.

Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma; Autentik (həqiqi) olmayan diplom; Ekvivalenti olmayan ixtisas; Təhsilalma forması; Akkreditasiyasız ali təhsil müəssisəsi.

Ən çox müraciət olunan ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyə Respublikasından 1453, Rusiya Federasiyasından 1367, Ukraynadan 1033, Gürcüstandan 220, Birləşmiş Krallıqdan 198, Belarus Respublikasından 147, Macarıstandan 74, Polşa Respublikasından 70, Amerika Birləşmiş Ştatlarından 49, İtaliya Respublikasından 48 müraciət edilib.

Rəqəmlər göstərir ki, 2024-2025-ci tədris ilində xaricdə təhsil alan azərbaycanlı gənclərin əksəriyyəti diplomlarının tanınması üçün müsbət qərar alıb.

Lakin 4 998 müraciətdən 921-i rədd edilib ki, bu da təxminən beşdə birinə bərabərdir. Bu reallıq onu da diktə edir ki, hər bir halda gənclərimiz təhsil üçün xaricə üz tutanda seçimlərinə də diqqətli yanaşmalıdırlar. Bəzən elə universitetlər seçilir ki, onun adı belə elm və təhsilə məlum deyil.

## Yağış yağacaq, şimşək çaxacaq

**Avqustun 16-da gözlənilən hava şəraiti açıqlanıb. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Gün ərzində bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-qərb küləyi səhər şimal-şərq küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu gecə 21-25, gündüz 28-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 mm civə sütunu, nisbi rütubət isə gecə 70-75 %, gündüz 45-50 % təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20-24, gündüz 29-34, dağlarda gecə 13-18, gündüz 20-25 dərəcə isti olacaq.

## Naftalanda bu mərkəz cərimələndi

**Naftalan Sağlamlıq və Müalicə Mərkəzi cərimələnib. "Unikal" xəbər verir ki, Naftalan Sağlamlıq və Müalicə Mərkəzi barədə Səhiyyə Nazirliyi tərəfindən tərtib edilən protokol təsdiq edilib.**

Belə ki, 24 iyul 2025-ci il tarixdə saat 16:00-da müəssisədə keçirilən planlı yoxlama zamanı sertifikatsız özəl tibbi praktiki fəaliyyət ilə məşğul olma faktı aşkar edilib. Mərkəz barədə İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsi ilə inzibati protokol tərtib edilib.

Mərkəzin direktoru izahat verərək bildirib ki, Səhiyyə Nazirliyinin əməkdaşlarının cəmiyyətə məxsus sanatoriyada keçirdikləri planlı yoxlama zamanı sertifikatsız özəl tibbi praktiki fəaliyyət ilə məşğul olma faktı aşkar edilib. O bildirib ki, buna səbəb Naftalan şəhərində olan kadr çatışmazlığıdır.

Naftalan Şəhər Mərkəzinin qərarı ilə Səhiyyə Nazirliyi tərəfindən tərtib olunan protokol təsdiq edilib. Protokola əsasən mərkəz İnzibati Xətalar Məcəlləsinin 215.4-cü maddəsində nəzərdə tutulmuş inzibati xətanın törədilməsində təqsirli bilinərək 6000 manat məbləğində cərimə edilib.

## Bakıda daha bir piyada ölümü

**Bakıda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi olub. Teleqraf-ın xəbərinə görə, hadisə Səbail rayonu Əhəd Yaqubov küçəsi, 15 ünvanında yerləşən Su İdman Sarayının qarşısında baş verib. Məlumata görə, Ağsu rayon sakini, 1996-cı il təvəllüdlü Məmmədov Tural Səlimxan oğlu idarə etdiyi "Hyundai" markalı avtomaşınla hərəkətdə olan zaman piyada qismində yolu keçən 1969-cu il təvəllüdlü Zeynalov Rəhim Bahadur oğlunu vurub. Piyada hadisə yerində ölüb. Faktla bağlı cinayət işi başlanılıb.**

## Azərbaycan karvanı Ukraynaya yola düşdü

**Azərbaycandan Ukraynaya humanitar yardım məqsədilə elektrik avadanlıqlarından ibarət yükün ikinci hissəsi yola salınıb.**

APA xəbər verir ki, yardım yük maşınları vasitəsilə Sumqayıt Texnologiyalar Parkından göndərilib. Elektrik kabelləri və naqillərindən ibarət humanitar yardım 9 yük maşını ilə yola salınıb.

Ukraynaya humanitar yardımın göstərilməsi Prezident İlham Əliyevin müvafiq sərəncamı əsasında həyata keçirilib. Xatırladaq ki, yardımın birinci hissəsi avqustun 13-də 10 yük maşınından ibarət karvanla yola salınıb. Humanitar yardımın tərkibinə 90 min metrə yaxın elektrik kabelləri və naqillər, 7 dəst transformator və 25 generator daxildir. Yardımın ümumi dəyəri 2 milyon dollar təşkil edir.

## Naxçıvanda ağır qəza - 2 nəfər öldü

**Naxçıvanda iki nəfərin ölümü ilə nəticələnən yol qəzası baş verib. Modern.az xəbər verir ki, hadisə Babək rayonunun Qahab kəndi ərazisində qeydə alınıb.**

Belə ki, 33 yaşlı Zamanov Möhlət Baxtıcamal oğlunun idarə etdiyi "Mercedes" markalı avtomobil "Ford" markalı nəqliyyat vasitəsilə toqquşub.

Nəticədə Babək rayon Qahab kənd sakini, Zamanov Möhlət Baxtıcamal oğlu və 27 yaşlı Babək rayon Naxışnərgiz kənd sakini, Zamanov Mənsur Mərdan oğlu hadisə yerində dünyasını dəyişib.

Avtomobilin digər sərnişini, Naxışnərgiz kənd sakini, 30 yaşlı Zamanov Şöhrət Aydın isə ağır bədən xəsarətləri alaraq Naxçıvan Muxtar Respublika xəstəxanasının travmatologiya şöbəsinə yerləşdirilib. Onun vəziyyətinin orta-ağır olduğu qiymətləndirilir.

Hadisə yerinə Daxili İşlər Nazirliyinin əməkdaşları və FHN-nin Xüsusi xilasetmə qrupu cəlb olunub. Faktla bağlı araşdırma aparılır.

## Kəlbəcərdə kişi qayadan yıxılaraq həlak oldu

**Kəlbəcərdə bədbəxt hadisə baş verib. APA-nın yerli bürosunun məlumatına görə, hadisə rayonun Rəhimli kəndində qeydə alınıb. Məlumata görə, Gəncə şəhər sakini, 1971-ci il təvəllüdlü U.Verdiyev kənd ərazisində ehtiyatsızlıqdan qayadan yıxılaraq ağır xəsarətlər alıb və hadisə yerində ölüb. Faktla bağlı araşdırma aparılır.**

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025



# Tramp-Putin görüşü: ABŞ-ın səbri Alyaskada bitəcək?

## Ukraynada proksi savaş aparan iki dövlətin liderləri bir araya gəldi - atəşkəs gözləntisi...

**ABŞ prezidenti Donald Trampla rusiyalı həmkarı Vladimir Putinin Alyaska sammiti Bakı vaxtilə 23.00-da keçirilib. "Yeni Müsavat" xəbər verir ki, Rusiya prezidentinin köməkçisi Yuri Uşakov öncədən danışıqların liderlərdən başqa, yalnız tərcüməçilərin iştirak edəcəyi təkbətək söhbətlə açılacağını anons edib. Ardınca Putinlə Tramp arasındakı danışıqlar "5+5" formatında nəzərdə tutulub. Rusiya tərəfdən danışıqlar qrupuna Yuri Uşakov, xarici işlər naziri Sergey Lavrov, müdafiə naziri Andrey Belousov, maliyyə naziri Anton Siluanov və prezidentin xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Kirill Dmitriyev daxil olub. "Putin-Tramp sammitinin mərkəzi mövzusu Ukrayna böhranının həlli olacaq, lakin digər mövzulara da toxunulacaq" - Uşakov bildirib.**

Yeri gəlmişkən, Lavrov Ankoricdəki ( Amerika Birləşmiş Ştatlarının Alyaska ştatının ən böyük şəhəri ) hotelə üzərində "SSRİ" yazısı olan paltarda gəlib. Jurnalistlərin onun Alyaskada əvvəllər olub-olmadığı sualına Lavrov "bəli" cavabını verib. O, tədbir öncəsi həyəcan yaşamadığını da vurğulayıb.

"Moskva Alyaskada ABŞ-Rusiya danışıqlarında öz aydın mövqeyini ortaya qoyacaq, artıq ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiven Uitkoffun səfərləri zamanı bu məsələ ilə bağlı çox işlər görülüb", - Lavrov belə deyib.

"Biz heç nəyi qabaqcadan planlaşdırmırıq. Bilirik ki, bizim arqumentlərimiz var, aydın, dəqiq mövqeyimiz var. Onu təqdim edəcəyik. Prezident bildirib ki, Stiven Uitkoffun səfərləri zamanı burada artıq çox işlər görülüb. Uitkoff Prezident Trampın adından danışıb", - Lavrov bildirib.

"Rusiya prezidenti Vladimir Putinlə ABŞ prezidenti Donald Trampın Alyaskada görüşü bütün dünya üçün önəmlidir. Rusiya konstruktiv dialoqa ümid edir və öz mövqeyini birbaşa Amerika tərəfinə çatdırmaq üçün fürsət görür". Bunu isə görüşdən əvvəl Rusiya prezidentinin xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Kirill Dmitriyev "Rossiya-1" telekanalında bildirib .

"Dialoqun davam etməsi vacibdir və biz çox konstruktiv dialoqa ümid edirik. Rusiya haqqında çoxlu dezinformasiya var və təbii ki, Rusiyanın mövqeyini Amerika tərəfinə birbaşa, aydın şəkildə çatdırmaq üçün mühüm imkan var", - o deyib.

Almaniya Kansleri Fridrix Merts də görüşdən gözləntilərini açıqlayıb: "Gözləntimiz budur ki, Rusiya Prezidenti Vladimir Putin amerikalı həmkarı Donald Trampla Alyaskada görüşdükdən sonra Ukrayna ilə (Prezident Volodimir Zelenski) ilkin şərt olmadan müharibəni bitirmək üçün birbaşa danışıqlara başlayacaq".

"Ukraynaya beynəlxalq hüququ pozan hücumdan üç il yarım sonra Rusiyanın atəşkəslə bağlı danışıqlar aparmaq və hərbi əməliyyatlara son qoymaq imkanı var. Biz Putinin Prezident Trampın danışıqlar təklifini ciddi qəbul edəcəyini və Alyaskadakı görüşdən sonra Ukrayna ilə ilkin şərt olmadan danışıqlara başlayacağını gözləyirik", - kansler bildirib.

Ukraynalı jurnalist Dmitri Qordon Vaşinqtondakı mənbələrə istinadən bildirib ki, münaqişə avqustun 15-də başa çatacaq.

Alyaskada sammit öncəsi Rusiyanın nümayəndə heyəti etiraz aksiyası ilə qarşılanıb. ABŞ-a gələn Rusiya nümayəndə heyətini onlarla aksiyaçı qarşılayıb. Onlar əllərində Ukrayna bayraqları və "Ukraine and Alaska - Russian never again!" (Ukrayna və Alyaska - rus işğalına bir daha yox!) şüarı yazılmış plakatlar qaldırıblar. Etirazçılar həmçinin "Stand with Ukraine" ("Ukraynanın yanındayıq"), "No West for Russia" ("Rusiyaya Qərb yoxdur") kimi çağırışlar da ediblər.

Aksiyanın məqsədi Rusiyanın Ukraynaya qarşı başlatdığı müharibəyə etiraz və Alyaskada keçirilən sammit zamanı dünya ictimaiyyətinə mesaj vermək olub. Etirazçılar Putinin təcavüzkar siyasətinə son qoyulmasını, həmçinin Ukraynada davam edən işğalın dayandırılmasını tələb ediblər.

Müşahidəçilərə görə, Putinlə Tramp arasında görüş, həmin görüş ərəfəsində Sergey Lavrovun üzərində "SSRİ" yazılan "mayka"da görünməsinə baxmayaraq, qətiyyən keçmiş SSRİ ilə ABŞ liderləri arasında baş tutmuş görüşlərlə müqayisə oluna bilməz. Çünki ABŞ həmin ABŞ olsa da, Rusiya qətiyyən SSRİ deyil...

Bu görüş daha çox Ukraynadakı savaşı bitirmək və Trampın Nobel mükafatı arzusunu nə yolla olursa-olsun gerçəkləşdirmək xatirinə ABŞ-nin oturduğu ən yüksək nöqtədən müvəqqəti olaraq bir neçə pillə düşməsinə, Rusiyanın isə yenə müvəqqəti olaraq "qulağından çəkilib" bir neçə pillə yuxarı, əslində layiq olmadığı pilləyə qədər qaldırılmasına bənzəyir. Tərəflərin görüşəcəyi pillənin adı isə Alyaskadır...

Təhlilçi Aqşin Kərimovun fikrincə, Alyaskada Zəngəzur da müzakirə edilə bilər: "Rusiya, Donald Trampın brokerliyi ilə Azərbaycan və Ermənistan arasında formalaşa biləcək iqtisadi əməkdaşlıqları diqqətlə izləyəcək. Bu əməkdaşlıq, Kremlin Zəngəzur dəhlizi ilə bağlı geoiqtisadi maraqlarına uyğun bir strategiya çərçivəsində Rusiyanı cəlb edə bilər. Bakı gələcəkdə dəhlizin inkişafında müəyyən rol almaq imkanını Rusiyaya tanıya bilər. Tramp ilə Putin arasında Alyaskada bu məsələlərin müzakirə mövzusu olması da mümkündür.

Digər tərəfdən, Rusiya ABŞ-nin Azərbaycan-Ermənistan münasibətlərinə pozitiv və konstruktiv yanaşmasının əvəzində güzəşt istəyə bilər. Bu güzəştlərdən biri kimi, Moskva, ABŞ ilə İran arasında vasitəçilik rolunu öz üzərinə götürmək istəyini irəli sürə bilər. İsrail və İran arasında müharibə başlamazdan əvvəl Moskvanın vasitəçilik üçün təkidləri də bu kontekstdə qiymətləndirilməlidir. İran isə yenə özünü sıxılmış hiss edir və onun dəhlizdə iştirak imkanlarını nəzərdən keçirçəməkdən başqa əlacı qalmır".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**

# "SSRİ" yazılan köynəkdə Trampla görüşə...



**Dünyanın nəzər-diqqəti sövq-təbii Alyaskaya, Tramp-Putin görüşünə yönəlib. Əsas səbəb bəlli: mövzu Ukrayna olsa da, bir çox regional məsələlər, o sırada Güney Qafqazdakı durum, ümumən qlobal geosiyasi arxitektura Ukrayna ilə bağlı anlaşmadan əhəmiyyətli şəkildə təsirlənəcək.**

Ancaq nəticə nə olur-olsun, danışıqlarda Putinə əsla onun imperiya iştahını hər hansı şəkildə gücləndirəcək ümid, vəd vermək olmaz. Çünki altını mütləq digər ölkələr və xalqlar, özəlliklə postsovet dövlətləri, həmçinin enində-sonunda ABŞ-ın özü çəkəcək.

Bəs pozitiv nəticəyə necə nail olmalı? Bu artıq Amerika diplomatiyasının vəzifəsi...

Gözləntilər fonunda Rusiya xarici işlər naziri Sergey Lavrovun Alyaskaya üstündə "SSRİ" yazılan köynəkdə varid olması diqqət çəkib. Kələntərov-Lavrov indi nə demək istəyir bununla dünyaya? Ukrayna ilə bağlı Kremlin işğalçı və avantürist siyasəti davam edəcək, ardınca "SSRİ-2" planı işə düşəcək?

Təbii ki, bizi ən çox Tramp-Putin görüşünün Güney Qafqaza hansısa təsiri, proyeksiyası maraqlandırır. Hər kəsə öz köynəyi yaxındır. Ağ Evdə 8 avqustda imzalanan Əliyev-Tramp-Paşinyan Birgə Bəyannaməsindən sonra məntiqlə Ağ Ev rəhbəri Alyaskada bu anlaşmalara xələl gətirəcək addıma getməyəcək. Ancaq Rusiya tərəfinin nə qədər hiyləgər, məkrli olduğu da gərək yaddan çıxmasın...

Bütün hallarda Cənubi Qafqazda şovinist Rusiyanın təsirini neytrallaşdırmağın ən səmərəli və tək yolu region ölkələri, özəlliklə Azərbaycan və Ermənistan arasında vaxt itirmədən qarşılıqlı etimad mühitinin yaradılması, sülh müqaviləsinin imzalanması, sərhədlərin və səfirliklərin açılması, nəhayət, nə qədər fantastik görünsə də, Avropa Birliyinə bənzər Qafqaz Evi qurulmasıdır. Söhbət həm də Türkiyə-Ermənistan əlaqələrindən gedir.

Çətindir, amma ayrı yol yox. Putin Rusiyasının mümkün ekspansiyasından qorunmağın ən etibarlı üsulu ona qarşı vahid mövqedən və ortaq strategiyadan çıxış eləməkdir. Əks halda o ayrı ayrılıqda hər birimizə, xüsusən də hərbi bazasının olduğu Ermənistana ciddi xətər yetirə, heç ABŞ, Avropa da özünü çatdıra bilməz. Bu xüsusda ötən əsrin 20-ci illərinin acı təcrübəsini də yada salmaq pis olmaz...

Yaxşı ki, bunu Ermənistan baş naziri Nikol Paşinyan da anlamağa başlayıb. Düzdür, Nikol etimad tədbirlərindən danışarkən bildirib ki, bir gündə, hətta bir həftədə, ay və ya ildə bütün vəziyyəti dəyişmək mümkün deyil. "Lakin çox vacib və aydın bir fakt var: biz hər ikimiz - yəni Prezident İlham Əliyev və mən bu vəziyyəti dəyişmək istəyirik. Ölkələrimiz arasındakı münasibətlərin məzmununu dəyişmək niyyətindəyik", - Paşinyan vurğulayıb.

Onu da deyib ki, ilkin sülh sazişi ölkələr arasında dostluq və mehriban qonşuluq münasibətlərinin qurulmasını nəzərdə tutur: "Bu, orta və uzunmüddətli məqsəddir və biz onun reallaşmasına fokuslanacağıq"...

Əlbəttə, Paşinyan və komandası hələ erməni xalqı demək deyil. Ancaq onun əlində siyasi hakimiyyət, ictimai rəyi məqbul səmtə yönəltmək üçün güclü, unikal resurslar və rıçaqlar var. Yəqin ki, onların hamısından istifadə edəcək.

Bunu hər şeydən öncə Ağ Evdəki anlaşmalardan sonra Moskvanın İrəvana artan təhdidi və hədələri diktə edir. Güman ki, Bakı və Ankara da "eyni qayıqda" olmağımızı və şimaldan eyni təhdidlərlə üzləşdiyimizi əsas götürüb bu tarixi missiyada Paşinyana gərəkən köməyi əsirgəməyəcək. Zira, masaya Qafqazda uzunmüddətli sülh və təhlükəsizlik, barışıq və rifah kimi son dərəcə prioritet məsələlər qoyulub.

Rusiyaya bir daha xalqları toqquşdurmaq şansı və "lüksü" vermək olmaz!..

❑ **Zahid SƏFƏROĞLU**

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025




## Deputat: "Azərbaycanı və Ermənistanı təhdid edirlər"

**Azərbaycan-Amerika Birləşmiş Ştatları parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, deputat Səməd Seyidov Teleqraf-ın suallarını cavablandırıb.**

Deputat Vaşinqton anlaşmasından danışıb: "Burada üç mühüm istiqamət var. Birinci istiqamət, sözsüz ki, Ermənistanın ev tapşırığıdır ki, burada da əsas şərt konstitusiya dəyişikliyi ilə Azərbaycana qarşı olan ərazi iddialarının aradan qaldırılmasıdır. Bu da 2026-cı ildə Ermənistanda keçiriləcək seçkilərdə nəzərdə tutulub. Ev tapşırığı tək bu məsələni əhatə etmir. Paraflanmış sülh mətninin içərisində olan bəzi müddəaların da həlli təşviq edilir. Məsələlər nə qədər tez həll olunsa, sülh sazişinin reallaşması o qədər tez mümkün olacaq. Bu da öz növbəsində sülhün heç nə ilə ziddiyyət təşkil etməməsinə köməklik göstərəcək. Misal olaraq paraflanmış sülh sazişinin II, III, VII, XV maddələrində üçüncü qüvvələr haqqında danışılır. Üçüncü qüvvələr içərisində Avropa Birliyinin müşahidə "missiyası"nın sərhəddəki fəaliyyətinə xitam verilməsi məsələsi əksini tapıb. Ermənistandakı revanşist qüvvələr yenidən baş qaldırmamalı və başqa dövlətlərin bu ölkədəki güc mərkəzləri də sülh sazişinə mane olmamalıdır. Əsas şərt odur ki, sülh sazişi imzalandıqdan sonra onun reallaşmasına problem yaratmasınlar. Bütün bunlar isə Ermənistana birinci istiqamət üzrə verilən ev tapşırıqlarıdır".

Deputat Zəngəzur dəhlizi ilə bağlı təhdidlərdən söz açıb: "Bu istiqamətdə hər iki tərəfə, yəni Azərbaycan və Ermənistana da təhdidlər edilir. Ermənistanın Baş naziri də çıxışında bildirdi ki, "heç kim qorxmasın, çəkinməsin. Əksinə sülh regionda olan ölkələrə rifah və gəlir gətirəcək. Bölgədə inkişafa təkan verəcək". Ermənistan tərəfindən və ümumilikdə verilən reaksiyalar sülhlə bağlı ikinci istiqaməti əhatə edirdi. Bəzi, ölkələr, qüvvələr, Qərb təşkilatları Azərbaycanın haqq səsinə heç vaxt səs verməyiblər. Əksinə onlar əllərindən gələni edirdilər ki, Azərbaycan uduzmuş, kənarda qalmış, cəzalandırılmış ölkə kimi prosesdə yer alsın. Bu istiqamətdə qəbul edilən "qətnamələr", "bəyanatlar", "sənədlər" də mövcuddur. Fransa, Belçika, Niderland tərəfindən Azərbaycanla bağlı qəbul edilən absurd qərarlar da buna misaldır. Avropa Parlamenti, Avropa Şurasının Azərbaycanla bağlı atdığı "addımlar" da bu prosesin tərkib hissəsidir".

# Zəngəzur dəhlizi üçün 2 şok ssenari

## "Tramp yolu"nun paritet əsasda ABŞ-Rusiya idarəçiliyinə verilməsi mümkündürmü? - iki rəy




**"Moskvanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi, yəqin ki, Alyaskada Putin-Tramp sammitindən sonra işlənib hazırlanacaq". "Yeni Müsavat"ın məlumatına görə, bunu Ermənistan News.am-in müxbirinə müsahibəsində rusiyalı politoloq Mixail Aleksandrov deyib. Onun iddiasına görə, başqa məsələlərlə paket çərçivədə müəyyən razılaşma mümkündür: "Məsələn, dəhlizin paritet əsasda Rusiya-Amerika idarəçiliyinə verilməsi mümkündür. Yaxud Ukrayna ilə bağlı razılığa gəlmək alınmasa, o zaman qarşıdurma ssenarisi üstünlük təşkil edəcək. Amma bu, hansı formada həyata keçiriləcək, bu barədə az sonra hökm vermək olar", - Aleksandrov əlavə edib.**

Bu arada erməni politoloq Stepan Danielyan mətbuata açıqlamasında deyib ki, "Zəngəzur dəhlizi layihəsi çərçivəsində Ermənistanın Sünik rayonuna (Qərbi Zəngəzur - red.) giriş-çıxışda Azərbaycan tərəfində Azərbaycan nəzarət-buraxılış məntəqələri qurulacaq və bütün əməliyyatları Azərbaycan gömrükçüləri həyata keçirəcək". Danielyana görə, Azərbaycan gömrükçüləri məlumatları toplayaraq Ermənistana ötürəcək, İrəvan isə "heç bir nəzarət həyata keçirməyəcək".

"Ermənistan tərəfi ərazisinin bu hissəsindən keçən azərbaycanlılara qarşı heç bir tədbir görməyəcək", - o vurğulayıb.

Məgər Rusiyanın Zəngəzur dəhlizi məsələsinə mövqeyi yəni hələ aydın deyil? Dəhlizin paritet əsasda Rusiya-Amerika idarəçiliyinə verilməsi mümkündürmü? ABŞ buna razılaşar?

Deputat Elman Nəsirov "Yeni Müsavat"a bildirdi ki, rəsmi Moskvanın Zəngəzur dəhlizi ilə bağlı mövqeyi indiyə qədər bəlli deyil: "Buna görə də rəsmi mövqe Tramp-Putin görüşündən sonra işlənib hazırlanacaq. Bu açıqlamadan belə çıxır ki, Moskva Zəngəzur dəhlizi ilə bağlı konkret mövqeyə malik deyil. Ancaq bu, bir qədər inandırıcı səslənmir. Rusiya hər zaman belə bir mövqeni ifadə edir ki, 10 noyabr üçtərəfli bəyanatına əsasən Zəngəzur dəhlizində Rusiya Federal Təhlükəsizlik Xidmətinin sərhəd qoşunları təhlükəsizlik missiyasını həyata keçirməlidir. Bu mövqedə hər hansı dəyişiklik olduğu barədə məlumat verilməyib. Amma indi isə görünür ki, ABŞ-ın və Cənubi Qafqazın iki dövlətinin Zəngəzur dəhlizi ilə bağlı mövqeyindəki üst-üstə düşən məqamları nəzərə almaq məcburiyyətində qalıb. Əvvəllər heç bir halda Birləşmiş Ştatların Zəngəzur dəhlizində mövcudluğunu qəbul etməyən rəsmi Moskva indi artıq ABŞ-la paritet əsasında Zəngəzur dəhlizinin idarəçiliyini həyata keçirə biləcəyini politoloqun dili ilə ictimailəşdirir. Bu da o halda baş verə bilər ki, Alyaskada Putin-Tramp danışıqlarında müsbət tendensiya qorunub saxlansın və kompromis əldə edilsin. Yox, əgər Alyaska danışıqları heç bir nəticə verməsə, bu, qarşıdurma mühitinin daha da genişlənməsi anlamına gəlir. Belə çıxır ki, müxtəlif istiqamətlər üzrə, eyni zamanda, Zəngəzur dəhlizi ilə bağlı məsələlərdə Vaşinqton-Moskva toqquşması baş verə bilər. Burada artıq Zəngəzur dəhlizinin reallaşdırılması ilə bağlı məsələlərdə Moskvanın təzyiqləri arta bilər. Yəni Alyaska danışıqlarının nəticələri Zəngəzur dəhlizi ilə bağlı proseslərə də müsbət və ya mənfi təsir edə bilər fikri rusiyalı politoloqun dili ilə mesaj verilmiş oldu. Amma Rusiyanın mövqeyində müəyyən yumşalma elementləri Alyaska görüşündən az əvvəl müşahidə olundu. Rusiya baş nazirinin müavini Aleksey Overçukun "Rusiya, Ermənistanın Azərbaycanla "Tramp yolu" adlı nəqliyyat dəhlizi yaratmaq planlarını dəstəkləyir" bəyanatı bunu göstərdi. Rusiya-ABŞ əməkdaşlığının yeni bir istiqamətinin Zəngəzur dəhlizində ola biləcəyini və ya mümkün olmadığını zaman göstərəcək. Alyaska görüşünün nəticələrini gözləmək lazımdır".

Politoloq Məhəmməd Əsədullazadə isə bildirdi ki, prezident Putinin prezident Trampla Alyaskada görüşünə saatlar qalmış Rusiya Federasiyası baş nazirinin müavini Aleksey Overçukun "Rusiya Ermənistanın Azərbaycanla "Tramp yolu" adlı nəqliyyat dəhlizi yaratmaq planlarını dəstəkləyir" bəyanatı ilə çıxış etməsi bir çox rus və erməni siyasi ekspertlərini şoka salan açıqlama oldu: "Rusiya baş nazirinin bəyanatı təbii ki, təsadüfən məhz dünən verilməyib və şübhəsiz ki, birbaşa Vladimir Putinin mövqeyidir. Putinin istəyi olmadan Overçukun o cür açıqlamanı dilə gətirməsi mümkün deyildi. Bu açıqlama Kreml sahibinin Ağ Ev sahibi ilə Zəngəzur dəhlizinin açılması və "Tramp yolu" adlandırılması məsələlərində bazarlığa hazır olduğunu Alyaska görüşündən əvvəl mesaj vermək üçün idi. Əgər Tramp Putinə Ukrayna məsələsində güzəştlərə getsə, Rusiyanın Zəngəzur dəhlizi və dəhlizin Amerika şirkəti tərəfindən işlənməsinə, ABŞ-ın bölgədə müəyyən qədər möhkəmlənməsinə bundan sonrakı mərhələdə loyal yanaşacağı, bu məsələlərə görə Ermənistanı sıxışdırmayacağı gözlənilləndir. Rusiya 8 avuqstda Vaşinqtonda imzalanan ABŞ-Azərbaycan-Ermənistan razılaşmalarından, şübhəsiz ki, razı qalmayıb. Sadəcə olaraq narazılığını və qəzəbini Alyaska görüşünə kimi mümkün qədər pərdələmək, nümayiş etdirməmək taktikasını seçdi. Buna görə də Kreml susmağa, narazılığını sadəcə hansısa siyasi ekspertlərin, Zatulin kimi şəxslərin dili ilə çatdırmağa üstünlük verdi. Alyaska görüşündə Trampla anlaşma mümkün olmayacağı halda yəqin ki, yaxın günlərdən etibarən Rusiyanın sərt üzünü göstərməyə başladığına şahidlik edəcəyik. Zəngəzur dəhlizinin ABŞ-ın patronajlığı ilə açılmasının qarşısını almaq, 8 avqust Vaşinqton raızlaşmalarının həyata keçməsinə mane olmaq, sülh prosesini əngəlləmək, bütün bu addımlarla Amerikanın Cənubi Qafqazda möhkəmlənməsini dayandırmaq variantı seçiləcək".

Dəhlizin paritet əsasda Rusiya-Amerika idarəçiliyinə gəlincə, politoloq hesab edir ki, Putinin Trampla görüşündə bu variantı da müzakirəyə çıxarması istisna deyil: "Lakin bu varianta ABŞ-ın müsbət münasibət bildirəcəyi inandırıcı deyil. Bu məsələdə də Amerikanın mövqeyi Putinlə Ukrayna məsələsində danışıqların nəticələrindən müəyyən mənada asılıdır".

❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025



# NATO tipli orduya keçid - Azərbaycan yolun sonunda

## Ekspert: “Taktiki və operativ postlarda, demək olar ki, sovet təhsilli zabitlər qalmayıb”

**Azərbaycanda ordu islahatları davam edir. Bu, daima yenilənən bir prosesdir yazsaq, yəqin ki, yanılmarıq. İstənilən ölkənin gücü isə həm də onun döyüşkən ordusunun olub-olmamasına bağlıdır. Məlumdur ki, Azərbaycan və Türkiyə öz ordularını inteqrasiya etmək və Türkiyə, NATO modelinə əsaslanan ordu yaratmaq üçün beşillik proqram (2020-2025) həyata keçirir. Proqramın bu il başa çatdırılması planlaşdırılır.**

Bəs hazırda hərbi islahatlar nə yerdədir? Keçid bu il tam başa çatacaqmı, yolun sonuna gəldikmi? Müdafiə nazirinin Türkiyədən yeni müşaviri olacaqmı?

Maraqlıdır ki, bu arada Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycanın müdafiə naziri Zakir Həsənovun müşaviri Bəxtiyar Ersayı Quru Qoşunları Komandanlığının tərkibindəki 1-ci Ordu Korpusunun komandiri təyin edib. Yəni o, Azərbaycanı tərk edəcək. Ərdoğan avqustun 5-də Ersaya ordu generalı rütbəsi vermişdi.

“Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə” İctimai Birliyinin sədri, hərbi təhlilçi Emin Həsənli “Yeni Müsavat”a bildirdi ki, Azərbaycan ordusunun müşavirinin qardaş ölkədə belə mühüm posta gətirilməsi həm də Azərbaycana olan sayğıdan irəli gəlir: “Azərbaycan Prezidenti, Cənab İlham Əliyev qarşıya məqsəd qoymuşdu ki, Azərbaycan ordusu türk ordu modelinə keçsin. Bilirsiniz ki, 1994-cü ildən Ulu Öndərimiz Heydər Əliyev NATO-nun tərəfdaşlıq proqramına qoşulmuşdu. 1996-cı ildən isə bu əlaqələr Türkiyə ilə genişlənmişdi. Azərbaycan artıq NATO, Türkiyə sisteminə keçib. Azərbaycan daim Türkiyə ilə birgə hərbi təlimlər keçirir. Ordumuz təcrübəsini türk ordusu ilə bölüşür. 44 günlük haqq savaşımızda bu təcrübəni həm də bölüşdük. Azərbaycan ordusunun müşavirinin qardaş ölkədə belə mühüm posta gətirilməsi həm də Azərbaycana olan sayğıdan irəli gəlir. Bilirsiniz ki, Bəxtiyar Paşa Suriyadakı əməliyyatlarda böyük uğurlar qazanıb, xalqımıza böyük etimadı var. Ordumuzun modernləşməsinə öz töhfəsini verib. Türkiyədə bu postdan daha yüksək postlar da tuta bilər. Artıq Azərbaycan və Türkiyə orduları koordinasiyalı şəkildə fəaliyyət göstərir. Eyni zamanda, Pakistanla da belədir. Bu iki ölkə ilə koordinasiyalı şəkildə olan fəaliyyətimiz milli maraqlarıma tam uyğundur”.

Hərbi icmalçı Səxavət Məmməd hesab edir ki, Türkiyənin Azərbaycanda Xidmət Qrupu Komandanlığına yeni komandan təyin ediləcək: “Azərbaycan 44 günlük müharibədən qalib ayrıldıqdan sonra orduda islahatlara başladı. Azərbaycan rəsmi olaraq Türkiyə ordu modelinə keçid etdi. Əslində, ordumuzun Türkiyənin ordu modelinə keçidi o qədər də çətin deyildi. Əvvəla, Azərbaycan ordusunun mənsubları Türkiyədə təhsil alırdı, hərbi məktəblərdə isə Türkiyə hərbi dərsliklərindən geniş istifadə olunurdu. Ona görə də, bu keçidin əsası daha öncədən qoyulmuşdu desək, daha düzgün olardı.

Nəzərə almaq lazımdır ki, Azərbaycan ordusunda taktiki və operativ postlarda, demək olar ki, SSRİ təhsilli zabitlər qalmayıb. Yalnız strateji postlarda rus təhsil sistemini görənlər var. Onların da bir çoxu Türkiyədə dəfələrlə kurslarda olublar. Ona görə də, Türkiyə ordu modelinə keçiddə praktiki olaraq çətinlik olmamalı idi. Azərbaycan ordusu Türkiyə ordu modelinə keçidi tamamilə bitirib desək, yanılarıq. Türkiyə ordu modelinə keçid hər anlamda baş tutmalıdır. Bunun üçün təkcə ştat-strukturu, qaydalar, normativlər əsas götürülmür. Ratasiyaların vaxtlı vaxtında həyata keçirilməsi, orduya ictimai nəzarətin olması və sadalası xeyli məsələlər var. Ona görə də, qarşıda gediləsi xeyli məsafənin olduğunu düşünürəm. General-leytenant Bəxtiyar Ersay təkcə Azərbaycan müdafiə nazirinin müşaviri yox, həm də Türkiyənin Azərbaycanda Xidmət Qrupu Komandanlığının rəhbəri idi. Hesab edirəm ki, Türkiyənin Azərbaycanda Xidmət Qrupu Komandanlığına yeni komandan təyin ediləcək və həmin şəxsə də ola bilsin, müdafiə nazirinin müşaviri postu verilə bilər. Hesab edirəm ki, Bəxtiyar Ersaya bu post müəyyən səbəblərdən verilmişdi. Bundan sonra başqa bir türkiyəli zabitə müşavir postu verilməyə də bilər. Şəxsən Bəxtiyar Ersayın yerinə gələcək şəxs nazirin müşaviri təyin edilməsə, təəccüblü olmamalıdır. Çünki ştat-strukturu tam hazırdır, ona uyğun olaraq silahlanma da həyata keçirilib.

Bir neçə il ərzində Azərbaycan Türkiyə ordu modelinə keçidlə bağlı məsələni tam şəkildə yekunlaşdıra biləcək. Proses tamamilə yekunlaşandan sonra Türkiyənin Azərbaycanda Xidmət Qrupu Komandanlığına belə ehtiyac qalmayacaq".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**

# Bakı və İrəvan arasında ilk - Amma hansı xəritə ilə...

## İki ölkə paraflanmış sülh mətninə əsasən bütün sərhədləri dəqiqləşdirməyə başlayır - Ermənistana xəbərdarlıq

**Avqustun 8-də ABŞ-da Azərbaycanla Ermənistan arasında sülh sazişinin mətni paraflandı. Sənədin ilk bəndində qeyd olunur ki, tərəflər, keçmiş SSRİ-nin Sovet Sosialist Respublikaları arasında sərhədlərin müvafiq müstəqil dövlətlərin beynəlxalq sərhədlərinə çevrildiyini və beynəlxalq birlik tərəfindən bu şəkildə tanındığını təsdiq edərək, bir-birinin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır və hörmət edirlər.**



6-cı maddədə isə deyilir ki, tərəflər, hazırkı Sazişin I Maddəsindən irəli gələn öhdəliklərinə tam uyğun olaraq, onlar arasında dövlət sərhədinin delimitasiyası və demarkasiyası haqqında Sazişin bağlanması məqsədilə müvafiq sərhəd komissiyaları arasında bu Komissiyaların razılaşdırılmış əsasnamələri əsasında vicdanla danışıqlar aparacaqlar.

Bundan sonra sərhədlərin dəqiqləşdirilməsi üçün hansı dövrün xəritələrindən istifadə olunacağı aktual məsələ olaraq qalır. Ermənistan Baş naziri Nikol Paşinyan onlayn mətbuat konfransı zamanı deyib ki, sərhədlərin delimitasiya prosesi davam edəcək, sovet dövründə mövcud olan sərhədlər bərpa edilməlidir. “Elə ərazilər var ki, bizə məxsusdur. Amma Azərbaycanın nəzarəti altındadır. Elə ərazilər də var ki, Azərbaycana məxsusdur. Lakin bizim nəzarətimizdədir. Delimitasiya prosesi davam etməlidir. Müstəqil Ermənistanın ərazisi Sovet dönəmindəki Ermənistanın ərazisi ilə eynidir. Eyni zamanda, müstəqil Azərbaycanın ərazisi də Sovet dövründəki Azərbaycan ərazisi ilə eynilik təşkil edir”, - Paşinyan qeyd edib.

Qeyd edək ki, Qazaxın 4 kəndi qaytarılarkən delimitasiya 1976-cı ilin xəritəsi əsasında aparılmışdı. Bu dəfə necə olacaq?

Mövzu ilə bağlı Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin (SHAM) sədri Xəyal Bəşirov “Yeni Müsavat”a danışıb. O, qeyd edib ki, bu paraflanma Azərbaycanla Ermənistan arasında bəzən qarşı tərəfin apardığı manipulyativ siyasətlərin qarşısını alıb:

“Əslində, bu sülh prosesi və sülh prosesinin məntiqi mərhələlərindən biri olan sülh sazişi mətninin paraflanması Azərbaycanla Ermənistan arasında bəzi hallarda qarşı tərəfin oynadığı oyunların qarşısını almış oldu. Baxın, sülh sazişi mətninin paraflanması həm də Ermənistan tərəfinin zaman-zaman oynadığı xəritə oyunları ilə bağlı bəhanələrinin üstünü kəsir, bu oyunlara son qoyur. Çünki biz zaman-zaman Ermənistandan gah bu dövrün, gah digər dövrün xəritələri ilə bağlı xəritə oyunları oynadığını görürdük. Prosesi uzatmaq, pozmaq siyasətini ortaya qoymaq və müxtəlif bəhanələrlə prosesdən yayınmaq üçün Ermənistan tərəfi hər şeyə əl atırdı, o cümlədən xəritə oyunlarına. İndi onsuz da ümumilikdə Ermənistan üçün bu oyunları oynamaq imkanları qalmayıb. Azərbaycan siyasi və diplomatik baxımdan Ermənistanı küncə elə sıxışdırıb ki, Ermənistan həmin oyunları davam etdirmək, hətta paraflanma prosesi olmasaydı belə, əvvəlki kimi o oyunları oynaya bilməyəcəkdi. Beləliklə, artıq bu proses arxada qalıb”.

X.Bəşirov xatırladıb ki, bundan öncə, Azərbaycan Ermənistanı hər hansı bir qarşıdurma olmadan, silahdan istifadə etmədən, güc tətbiq etmədən, itkilər yaşamadan Qazaxın 4 qeyri-anklav kəndinin qaytarılmasına nail oldu: “Ayrım, Aşağı Əskipara, Xeyrimli və Qızılhacılı kəndləri. Bu kəndlər Azərbaycan və Ermənistan sərhədində yerləşirdi və Ermənistan tərəfi onları Azərbaycanın nəzarəti altına verdi. Və bizim aramızda 4 eksklav kəndi var ki, hansı ki, Ermənistan tərəfindən anklavdır: Yuxarı Əskipara, Sofulu, Barxudarlı və bir də Naxçıvan tərəfdən Kərki kəndi hələ də Ermənistanın nəzarəti altındadır. Həm də Ermənistanın, bildiyimiz qədər, bir kəndi Azərbaycanın anklavındadır. Bu, sovet dönəmindən qalma bir məsələdir.

Əslində, burada hər hansı bir xəritələrə ehtiyac yoxdur. Çünki bu gün münaqişə 30 il davam etsə də, o münaqişənin başlanmasından öncə olan insanlar var - həm Azərbaycanda, həm də Ermənistanda. Onlar və biz özümüz də yaxşı bilirik ki, hansı ərazilər Azərbaycana aiddir, hansı ərazilər isə Ermənistana aid olub. Söhbət sovet dönəmindən gedir. Yəni burada hər hansı bir çətinlik yoxdur. Düşünürəm ki, Alma-Ata bəyannaməsi fikrimcə ən ədalətli və ən real yanaşmanı ortaya qoyur. Və o kifayət edir ki, Azərbaycanla Ermənistan öz aralarında sərhədlərini müəyyənləşdirsinlər”.

Onun fikrincə, Ermənistanın baş naziri təbii ki, bundan sonra verəcəyi bəyanatlarda diqqətli olmalıdır: “10 noyabr 2020-ci il tarixli bəyanata münasibətdə olduğu kimi, öz düşüncələrinə uyğun şərhlər verməməlidirlər. Sazişin mətni bəllidir, hər birimiz bu sazişin mətni ilə tanış olmaq imkanına malikik və sazişin mətnində bütün detallar öz əksini tapıb. Fərqli sənədlərə istinad etmək və sair əsaslandırmalar axtarmağa ehtiyac yoxdur”.

X.Bəşirov hesab edir ki, sovet rəhbərliyinin saxtakarlığı ilə tərtib edilmiş xəritələrə istinad edərək yeni iddialar irəli sürmək Ermənistanın özünə zərər gətirəcək:

“Komissiya mövcuddur və bu komissiyanın əsasnaməsi də mövcuddur. Hansı əsasla bu komissiya fəaliyyət göstərir, bu, paraflanmadan öncə də bəlli idi. Keçmişdən xəritələr axtarmaq, Sovet İttifaqı rəhbərliyindəki şəxslərin saxtakarlığı nəticəsində hər hansı xəritələri tərtib edib ona istinadla siyasət yürütməyin zərbəsi Ermənistanın özünə dəyəcək”.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025



## Azərbaycan-Rusiya danışıqları başlanır

**"Gələn həftə Azərbaycan tərəfi ilə Cənubi Qafqazda nəqliyyat kommunikasiyalarının blokunun açılması məsələsini müzakirə edəcəyəm". APA xəbər verir ki, bunu Rusiya baş nazirinin müavini Aleksey Overçuk jurnalistlərə açıqlamasında qeyd edib.**

Overçuk görüşün Rusiyada olacağını deyib. Baş nazirin müavini qeyd edib ki, Azərbaycan, Ermənistan və Rusiya baş nazir müavinləri səviyyəsində üçtərəfli işçi qrupu mövcuddur və bu qurum Rusiya, Azərbaycan və Ermənistan liderlərinin üçtərəfli bəyanatının doqquzuncu bəndinin icrası üzərində çalışır, habelə kommunikasiyaların açılması ilə bağlı bütün incə məqamları ətraflı müzakirə edib.

"Üçtərəfli işçi qrupu çərçivəsində müzakirə olunan məsələlərin həllində tərəflərin nə qədər irəlilədiyini bilməkdə maraqlıyıq. Bəzi nüanslar Rusiya Federasiyasının Cənubi Qafqazdakı maraqlarına, ilk növbədə, dəmir yolu kommunikasiyalarının inkişafı baxımından təsir göstərir. Ona görə də həmin nüansların tapılıb-tapılmadığını eşitməkdə çox maraqlı olacağıq. Əgər bütün bu məsələlər həll olunubsa, biz bunu hesablamaların texniki-iqtisadi əsaslandırma müstəvisinə çevirməli, bu layihələrin iqtisadi tərəflərinə nəzər salmalı və blokun açılması ilə məşğul olmalıyıq. Amma yenə də bunun üçün, əlbəttə ki, Ermənistan və Azərbaycanla əldə etdiyimiz və yekunlaşdırdığımız qarşılıqlı fəaliyyət çərçivəsində üçtərəfli səylər tələb olunacaq", - Overçuk əlavə edib.

# Putinin adamının müəmmalı İran səfəri - Bakıya qarşı oyun?

## Rusiya və İran Cənubi Qafqazla bağlı məkrli plan qurur; Xovayevin Tehrana gedişində gerçək hədəf açıqlandı




**İki gün öncə İranın xarici işlər naziri Abbas Əraqçi Tehranda Rusiya XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayevi qəbul edib. Bu barədə İran mediası məlumat yayıb.**

Bildirilir ki, Tehranda keçirilən görüşdə Əraqçi Cənubi Qafqazda təhlükəsizlik və sabitliyin təmin olunması üçün region ölkələrinin problemləri dinc yolla həll etməsinin vacibliyini vurğulayıb. O həmçinin "3+3" formatı kimi regional mexanizmlərin potensialından istifadə olunmasının əhəmiyyətini qeyd edib.

Görüş Azərbaycan, ABŞ və Ermənistan liderlərinin Ağ Evdəki üçlü görüşündən az sonraya təsadüf eləməsi ilə diqqət çəkir. Bəllidir ki, üçlü anlaşmalardan ən çox əndişə keçirən də elə İran və Rusiyadır.

Bu arada erməni politoloq Ara Poqosyan deyib (Teleqraf) ki, Cənubi Qafqaz artıq tamamilə Türkiyənin nəzarətinə keçib.

"Türkiyə, Azərbaycan, Rusiya və İran mediasının əldə edilmiş razılaşmaya reaksiyalarını təhlil edəndə məlum olur ki, bütün bunların məğzi Cənubi Qafqazın tamamilə Türkiyənin təsir dairəsinə keçməsi ilə bağlıdır. Yenə deyirəm, ABŞ-nin yox, Türkiyənin", - Poqosyan qeyd edib.

Onun sözlərinə görə, Türkiyə kapitalı Gürcüstanda dominantlıq edir və ciddi siyasi faktordur: "Artıq Ermənistan da Türkiyə və Azərbaycanın enerji, infrastruktur, iqtisadi, demoqrafik çevrəsində görünür. Bu andan etibarən Ermənistanın ticarət dövriyyəsi bu ikisi ilə bağlı olacaq. Rusiya və İran regionda yeni hegemonun yaranmasından narahatdır, çünki ənənəvi olaraq, Ankaranın bölgədə rolu məhdud olub və həmişə balans qorunub saxlanılıb, indi isə bu tarazlıq dəyişir. İran təkcə yol deyil, həm də geosiyasi oyunçu rolunu itirir. Rusiya isə ərazisinə görə nə qədər strateji dərinliyə malik olsa da, yenə də ən mühüm enerji və tranzit zonalarından birində - Cənubi Qafqazda təsirini itirir, bunun müqabilində Türkiyə dominant nüfuz qazanır".

Erməni ekspert əlavə edib ki, ABŞ-nin regionda strateji yox, taktiki marağı var və bu səbəbdən İran və Rusiyadansa, Türkiyənin Cənubi Qafqazda güclənməsində maraqlıdır.

Vaxtilə Bakı və İrəvanda da bir neçə dəfə olmuş Xovayevin Tehran səfərində gerçək hədəf nə ola bilər?

Siyasi şərhçi Xəyal Bəşirov "Yeni Müsavat"a bildirdi ki, İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqlar bir sıra xarici qüvvələr tərəfindən qəbul edilmir: "Həm İranın mühafizəkar kəsiminin təmsilçiləri tərəfindən, həm Rusiyadan yeni reallıqlara qarşı mövqe ortaya qoyulduğunu dəfələrlə eşitmişik. Eyni zamanda, Avropanın bəzi ölkələrindən və siyasətçilərindən də oxşar məzmunlu addımların şahidi olmuşuq. Ancaq zaman keçdikcə, Azərbaycan haqlı, qətiyyətli mövqeyində dayandıqca həmin qüvvələr reallıqları qəbul etməyə məcbur olurlar. Ən son sülh prosesi istiqamətində çox uğurlu bir addım atıldı. İndi bu nəticələrə qarşı olan qüvvələrin bir araya gəlib eyni mövqedən çıxış etmələrinə çalışdıqları müşahidə olunur".

Ekspert qeyd etdi ki, Xovayevin İran səfəri də bununla əlaqədardır: "Rusiya və İranın bu məsələdə birləşəcəyi bəlli idi. Onlar ortaq düşmənləri saydıqları Amerikanın Cənubi Qafqazda möhkəmlənməsini, Zəngəzur dəhlizinin "Tramp yolu" adlandırılaraq ABŞ şirkətinin idarəçiliyinə verilməsini istəmirlər".

X.Bəşirov dedi ki, Xovayevin məhz indi İrana səfər etməsi təsadüfi deyil. "Bu səfər Zəngəzur dəhlizi, Vaşinqtonda imzalanan sənədin Cənubi Qafqaza gətirəcəyi yeni vəziyyət, paraflanmış sülh sazişi ilə bağlı İranla Rusiyanın mövqelərinin, atacaqları addımların uzlaşdırılması üçündür. Diqqət çəkən nüanslardan biri Rusiyanın İrana XİN-in Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi olan diplomatı göndərməsidir. Bu fakt da bir daha sübut edir ki, Xovayev İrana məhz Azərbaycan-Ermənistan sülh prosesində yeni yaranmış vəziyyətlə bağlı Tehranla müzakirə aparıb saatları tutuşdurmaq üçün göndərilib. Təbii ki, bu səfərin Cənubi Qafqaza, sülh prosesinə, Zəngəzur dəhlizinin açılmasına xidmət etdiyindən danışmaq yersiz olar", - deyə X.Bəşirov vurğuladı.

Onun sözlərinə görə, Xovayev əgər sülh sazişinin paraflanmasını, Ermənistanla Azərbaycan arasında imzalanan 8 avqust razılaşmasını təqdir etsəydi, onda səfərinin prosesə qarşı deyil, töhfə xarakterli olduğundan danışa bilərdik: "Ancaq yayılan məlumatlarda Xovayevin və İran tərəfinin açıqlamalarında sülhə, Zəngəzur dəhlizinin açılmasına dəstək hesab ediləcək heç nə yoxdur. Deməli, bu səfər sülhə, inkişafa, Cənubi Qafqazda xalqların rahat yaşamasına qarşı olan səfərdir. Rusiya və İranın mühafizəkar dairələri güclərin birləşdirib bölgədə sülhün qarşısını almağa çalışırlar".

Ekspert qeyd etdi ki, Türkiyə indiyə qədər Ermənistanı müdafiə etmiş dövlətlərdən fərqli olaraq bölgədə sülhə nail olunması üçün daim çalışıb və bu gün də çalışır: "Türkiyə Rusiya və İranın mühafizəkar dairələrindən fərqli olaraq, Azərbaycanla Ermənistan arasında daimi sülhün bərqərar olmasında maraqlıdır, bunun üçün mümkün addımları atır, tərəfləri bir-birinə qarşı qızışdırmaq deyil, yaxınlaşdırmaq siyasətini yürüdür. Türkiyənin sülhə xidmət edən siyasəti təbii ki, ona Cənubi Qafqaz ölkələrinin, bu ölkələrin xalqlarının etimadını formalaşdırır, inam yaradır. Bu isə, təbii ki, son nəticədə Türkiyənin bölgədə söz sahibi olan, sözü eşidilən, mövqeyinə hörmət edilən dövlət statusunu daha da möhkəmləndirir. Türkiyənin bölgədə mövqelərini Amerika yox, onun özünün düzgün, barışdırıcı siyasəti möhkəmləndirir. Türkiyənin bölgədə marağı sülh olmasıdır, başqa bir niyyəti yoxdur. Erməni siyasi ekspertin ABŞ-nin Türkiyənin Cənubi Qafqazda güclənməsində maraqlı olduğunu iddia etməsi ciddi əsası olmayan fikirlərdir. ABŞ ilə Türkiyənin münasibətlərində Co Baydenin dövründə soyuq münasibətlərin olduğunu sübuta yetirməyə ehtiyac yoxdur. Tramp hakimiyyətə gələndən sonra münasibətlər bir qədər düzəlsə də, problemlər hələ də qalır. Türkiyə NATO üzvü kimi ABŞ-nin bölgədə yaxın müttəfiqidir. Lakin bu o demək deyil ki, Türkiyə Cənubi Qafqazda Amerikanın diktəsi ilə siyasət yürüdür. Türkiyənin Cənubi Qafqaz ölkələri ilə əməkdaşlığı təbiidir. Bunu ABŞ-nin bölgəni Türkiyəyə verdiyi kimi qələmə vermək pozucu qüvvələrə xidmət edir".

**Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

## Tehrandan yeni dəhliz açıqlaması


Məhəmməd Rza Aref

**"Xarici ölkələr"in müdaxiləsi Cənubi Qafqazda davamlı təhlükəsizliyə töhfə vermir". Bunu İranın birinci vitse-prezidenti Məhəmməd Rza Aref deyib.**

"İran regionda sülhün və sabitliyin möhkəmləndirilməsinin vacibliyini vurğulayaraq, Ermənistan və Azərbaycan arasında sülh sazişini alqışlayıb və ölkələrin ərazi bütövlüyünə hörmətlə bağlı sarsılmaz mövqeyini bəyan etməklə yanaşı, xarici dövlətlərin regionun işlərinə müdaxiləsinin davamlı təhlükəsizliyə töhfə verməyəcəyinə inanır", - Rza Aref bildirib.

# Paşinyan "ev tapşırığı"nın icrasına başladı - Əliyevin o tələbi...

## İrəvanda Konstitusiya İslahatı Şurası uzun fasilədən sonra iclas keçirib - Ermənistan Azərbaycanın son şərtini yerinə yetirmək hazırlığında




**Ermənistan Baş naziri Nikol Paşinyan Azərbaycanın Ermənistan Konstitusiyasının dəyişdirilməsi ilə bağlı növbəti tələbinə razılıq verib. Bu barədə "Hraparak" qəzeti məlumat yayıb.**

Nəşr bildirib ki, söhbət Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarının yer aldığı Müstəqillik Bəyannaməsinə istinadın Ermənistan Konstitusiyasından çıxarılmasından gedir: "Bunu Vaşinqton Sazişinin birinci bəndi sübut edir. Orada bildirilir: "Sülh müqaviləsi paraflandıqdan sonra biz sazişin imzalanması və yekun ratifikasiyası istiqamətində gələcək fəaliyyətlərin davam etdirilməsinin zəruriliyini qəbul etdik və ölkələrimiz arasında sülhün qorunması və möhkəmləndirilməsinin vacibliyini vurğuladıq".

Bu razılaşmadan sonra Bakı bəyan elədi ki, Paşinyana ev tapşırığı veriblər: o, Konstitusiyanı dəyişməlidir və sülh sazişi bundan sonra imzalanacaq" (Teleqraf).

Qəzet ardınca qeyd edir ki, Konstitusiya İslahatı Şurası uzun fasilədən sonra həftələr öncə iclas keçirib. "Əldə etdiyimiz məlumata görə, şura tezliklə yeni Konstitusiyanın mətninin hazırlanması üçün aktiv şəkildə iclaslar keçirəcək", - məlumatda bildirilir.

Bəs Paşinyan Əliyev və Trampın əsas "Ev tapşırığı"nı hansı tarixdə reallaşdıracaq?

"Ermənistanın Baş naziri Nikol Paşinyanın ölkəsinin Konstitusiyasından Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarını əks etdirən müddəaların çıxarılmasına razılıq verməsi, uzun illərdir bölgədə gərginliyə səbəb olan təxribatçı yanaşmadan imtina istiqamətində mühüm addımdır. Ermənistanın Müstəqillik Bəyannaməsinə istinadla ərazi iddialarını Konstitusiya səviyyəsində qoruması beynəlxalq hüququn prinsiplərinə, xüsusilə də dövlətlərin ərazi bütövlüyü prinsipinə ziddir. Bu səbəbdən həmin müddəaların ləğvi regionda davamlı sülhün bərqərar olması üçün zəruri şərtdir".

Bunu "Yeni Müsavat"a Milli Məclisin deputatı Vüqar İskəndərov deyib.

Deputat bildirib ki, Vaşinqton Sazişinin birinci bəndində də vurğulandığı kimi, sülh müqaviləsinin paraflanmasından sonra onun imzalanması və ratifikasiyası üçün zəruri addımların atılması tərəflərin öhdəliyidir: "Ermənistan Konstitusiyasındakı təxribatçı müddəaların aradan qaldırılması, bu öhdəliyin real icrası və sülh prosesinin irəliyə aparılması üçün əsaslı zəmin yaradacaq. Bu baxımdan hesab edirəm ki, Ermənistanın "ev tapşırığı"nı tez bir zamanda yerinə yetirməsi vacibdir. Çünki hər hansı siyasi manevr və ya gecikmə cəhdləri, təkcə sülh gündəliyinə zərbə vurmaqla qalmayacaq, həm də Ermənistanın beynəlxalq etibarlılığını ciddi şəkildə sarsıdacaq. Sülhün imzalanması üçün bu addımın gecikdirilmədən atılması bölgədə sabitlik və qarşılıqlı etimad mühitinin möhkəmlənməsi baxımından həlledici əhəmiyyət daşıyır".

V.İskəndərov qeyd edib ki, Azərbaycan sülhün əldə olunması üçün bütün addımları atmağa hazırdır: "İndi top Ermənistanın tərəfindədir. Paşinyan hökuməti siyasi iradə nümayiş etdirərək bu dəyişiklikləri reallaşdırmalı, xalqını əsassız iddiaların əsiri olmaqdan qurtarmalıdır. Yalnız bundan sonra bölgədə etibarlı sülh və əməkdaşlıq mühiti formalaşa bilər".

AMİP liderinin köməkçisi, politoloq Əli Orucov məsələlərə bu cür aydınlıq gətirdi: "Azərbaycanla Ermənistan arasında sülh sazişinin imzalanması və dövlətlərarası münasibətlərin qurulmasında əngəl olan iki vacib məsələ var. Biri fəaliyyəti olmayan ATƏT Minsk Qrupunun buraxılması və Ermənistanın Konstitusiyasında Azərbaycana qarşı ərazi iddialarının aradan qaldırılması idi. Lakin İrəvan hər vəhclə Bakının haqlı tələblərini icra etmək istəmirdi. Bu da nəticə etibarı ilə sülh sazişini imzalamağı yubadırdı. 8 avqustda Ağ Evdə prezident Trampın vasitəçiliyi ilə Azərbaycan və Ermənistan arasında aparılan görüşlərdə və imzalanan tarixi sənədlərdə nəhayət ki, Paşinyan şərtləri qəbul etmək məcburiyyətində qaldı. ATƏT Minsk Qrupu demək olar ki, buraxılıb. Hər iki tərəf bununla bağlı quruma birgə müraciəti ünvanlayıb. Lakin konstitusiya dəyişikliyinin bir qədər uzun proses olacağı gözlənilir. Bunun üçün ilk növbədə ciddi hazırlıqlar tələb olunur. Erməni cəmiyyətini inandırmaq lazımdır ki, onların konstitusiyası işğalçı ruhludur, başqa dövlətlərin ərazilərinə iddia edilir. Bu təkcə Azərbaycanın şərti kimi qəbul edilməməlidir, beynəlxalq hüquq normaları və prinsiplərindən irəli gəlir. Bir dövlətin ərazisinə konstitusiya ilə iddia edərək həmin dövlətlə sülh sazişi imzalamaq və diplomatik əlaqələr qurmaq absurd səslənir. Gələcəkdə imzalanacaq həmin sənədlərin özü də davamlı sabitliyə və təhlükəsizliyə tam təminat vermir. Nəzərə almaq lazımdır ki, erməni müxalifəti, həmçinin kilsə sülh sazişinə qarşı çıxmaqdadır və onlar bu yolu bloklamaq üçün hər cür vasitəyə əl atırlar. Rusiya da həmin qüvvələri açıq şəkildə müdafiə etməkdədir. Odur ki, Paşinyan müsbət nəticəni almaq üçün təbliğat aparatını gücləndirib erməni cəmiyyətini Konstitusiya dəyişikliyinin vacibliyinə inandırmağı bacarmalıdır. Mövcud durum isə qaneedici deyil və Konstitusiya dəyişikliyində üstünlük Bakının diktəsi kimi qəbul edilir. Qarşıda isə Ermənistanda parlament seçkiləridir və indiki hakimiyyət nisbi üstünlüyə malikdir. Odur ki, Paşinyan seçki öncəsi referenduma getməyə tərəddüd edərdi. Ehtimallardan biri odur ki, seçkini udub növbəti qısa mərhələdə referenduma start verilsin. Lakin Birləşmiş Ştatların və Qərbin güclü dəstəyini hiss edərsə, o zaman uzağı 2026-cı ilədək Konstitusiya dəyişikliyini həll edər. Məncə, Baş nazir üçün yaxın prioritet hakimiyyətini qorumaqdır. Erməni kilsəsinə qarşı total hücum da, Moskvanın əlaltılarını əzməklə bağlı sərt tədbirləri də məhz parlament seçkilərinə hesablanıb. Əsas odur ki, sülh sazişi paraflanıb, Ermənistan sazişdən irəli gələn müddəaları qeyd şərtsiz icra etməlidir və edəcək də. Əks təqdirdə fəlakətlə üzləşə bilər".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# İran naxçıvanlılardan "Tramp marşrutu"nun heyfini çıxır

## Bakıya yük daşıyan sürücülərimiz qonşu sərhəddə incidilir; dövlət agentliyindən və deputatdan xəbərdarlıq

**Sosial medianın Azərbaycan seqmentində yayılan məlumata görə, Naxçıvandan Bakıya yük daşıyan sürücülər çətinliklərlə üzləşirlər. Musavat.com xəbər verir ki, sürücülər "Gündəlik Naxçıvan"a İranda gözlədildiklərinə dair müraciət ediblər.**




Onlar bildiriblər ki, günlərlə ac-susuz, çöllük ərazidə toz-torpaq içində gözlədildikdən sonra Azərbaycana buraxılırlar. İddiaya görə, İran rəsmiləri sürücülərə məsləhət görüblər ki, yeni qayda xoşlarına gəlmirsə, gedib "Tramp Marşrutu"ndan istifadə eləsinlər. Sürücülər bildirirlər ki, keçiddə növbə olduğunu bəhanə gətirib, onları Biləsuvar gömrüyündən xeyli aralıdakı çöllüyə göndərirlər:

"Burda nə yemək var, nə də su. Almaq üçün gərək kilometrlərlə yolu piyada gedəsən. Bir neçə gündür belə ediblər. Əvvəl gömrüyün qarşısında bir neçə saat gözlədikdən sonra buraxılırdıq. Sülh sazişi imzalandıqdan sonra bizi və türkiyəli sürücüləri gətirib, çöllüyə doldurublar, günlərlə gözləməyə məcbur edirlər. Kefləri gələndə 1-2 maşın buraxırlar. Ac-susuz, toz-torpaq içində gözləməyimiz bir tərəfə, burada tualet də yoxdur. Həm də bizimlə heyvan kimi davranırlar".

Sürücülər deyirlər ki, İran rəsmiləri bu münasibətin imzalanan sülh sazişinə görə olduğunu onlara açıq bildiriblər:

"Açıq deyirlər ki, sizin hökumət ermənilərlə birləşib, İranın başının üstündən iş görüb. Buna görə də xoşunuz gəlmirsə gedin, sazişdə göstərilən "Tramp Yolu"ndan istifadə edin, ya da Ermənistan özü sizə yol versin. Əlləri heç yerə çatmır, qorxudan bir şey edə bilmirlər, sülh sazişinin acığını bizdən çıxırlar", deyə sürücülər narazılıq edirlər.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) Musavat.com-un sorğusuna cavabda bildirilib ki, gömrük-buraxılış məntəqələrində növbələrin tənzimlənməsi həmin məntəqənin yerləşdiyi ölkənin aidiyyəti qurumları tərəfindən həyata keçirilir. Qurumun mətbuat katibi Tural Orucov saytımıza açıqlamasında qeyd edib ki, AYNA-ya daha əvvəl də sürücülər tərəfindən Biləsuvar ərazisində növbələrin təşkili ilə bağlı şifahi müraciətlər daxil olub və müraciətlər əsasında qarşı tərəfin aidiyyət qurumları ilə işçi qaydada müzakirələr aparılıb;

"Hazırda yayılan iddiaları aydınlaşdırmaq üçün Naxçıvandan olan bir qrup sürücü AYNA-ya dəvət olunub, onlarla görüş keçiriləcək və daha sonra qarşı tərəflə müzakirə ediləcək.

AYNA qarşılıqlı əməkdaşlıq çərçivəsində yük nəqliyyat vasitələrinin keçidi, növbələrin təşkili və digər məsələlərlə bağlı mütəmadi olaraq qarşı tərəflə görüşlər keçirir və sürücülərin rahatlığının təmin olunması istiqamətində fəaliyyətini davam etdirir".

Milli Məclisin deputatı Fazil Mustafa sözügedən hadisəni qeyri-humanist davranış kimi dəyərləndirdi. Millət vəkili "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, sıravi insanlara bu qədər əziyyət verilməsi insani yanaşma deyil: "Təbii ki, bu, yuxarıdan gələn qərardır. Bu qərara yenidən baxılmalıdır. Bu cür məsələlərdə atılan addımlar sonradan onların özlərinin əleyhinə çevrilir. Odur ki, İran sərhədçilərinin bu davranışları qəbuledilməzdir və bu məsələ onların diqqətinə çatdırılmalıdır".

P.S. Qeyd edək ki, qəzet çapa gedərkən sürücülərin problemi həllini tapmamışdı.

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025



# İtirilmiş nazirin axtarışında

Zamin HACI
zaminhaci@gmail.com

"Ağrı sona qədər yaşanmadıqca keçmir"
*(Marsel Prust)*

**Ermənistanla mümkün sülh sazişi, yenidən xalqlar dostluğu yaranması ehtimalı ortaya çıxanda uca millətimizin ağlına Misir Mərdanovu danışdırmaqdan başqa nəsə ideya gəlmədi. Keçmiş təhsil nazirimiz o tərəflərdə doğulmuşdur, Paşinyanın əmisi arvadı bunların kəndində təndir çörəyi yapırmış, xalası oğlu dəllək imiş, bibisi nəvəsi cərrah imiş və şəxsən balaca Misirin apensitini kəsərək müalicə etmişdir və sairə və ilaxır - belə boyat, mənasız, düşük, rəhmətlik Avdırəhman müəllim demişkən, bambılı xatirələr...**

Haşiyə çıxaraq qeyd edim ki, Misir müəllim hər dəfə bu "Qərbi Azərbaycan icması" adından danışanda, intervü döşəyəndə nə sirdisə mən Əli İnsanovun tutulduğu günləri - o qərib 2005-ci ili də xatırlayıram. İndiki uşaqların yadında olmaz, həmin dövrdə İnsanov guya "yerazların" ümumtayfa lideri sayılırdı. Misir müəllim isə qəbiləni topladı və iclasda bəyanat verdilər ki, əslində Əli müəllim heç düzgün "yeraz" da deyildir, Gürcüstanın hansısa Ermənistanla sərhəd, sınır obasında doğulub boya-başa çatmışdır. İnsafən, ötən illər Misir müəllimin uzaqgörən açıqlamasını təsdiqlədi: Əli müəllim indiyəcən də sərhəddə yaşayır. Gah o tərəfə keçir(dirlər), gah bu tərəfə. Meksika-ABŞ sərhədində yaşayanlar ona həsəd aparır.

Qayıdaq Misir müəllimin, türkün sözü, anılarına. Başqa bir şeyimiz də yoxdur axı. Düşmənçiliyə Zori Balayan-Silva Kaputikyan və Nemət Pənahlı-Etibar Məmmədovla başlamışıqsa, onu Nikol Vovayeviç və Misir Mərdanovla bitirməyə məcburuq. Ortada itirilən illərə, dağıdılan ellərə, dərbədər düşmüş ölülərə heyf. Hətta indi düşünürəm ki, o vaxt Misir müəllim hansısa üsulla, lap elə Ştirlits metodları ilə Ermənistanda qalmış olsaydı, bizim deyil, oranın təhsil naziri işləsəydi Ermənistan daha tez məğlub olar və bölgəyə barış gələrdi! Ermənilər necə bir səadətdən, necə bir xoşbəxtlikdən, necə bir təhsil fədaisindən məhrum olduqlarını hələ uzun illər dərk etməyə çalışacaq, baş-gözlərinə döyərək, saçlarını yolaraq ağlaşacaqlar.

Keçənə güzəşt demişlər, nə etmək olar... Nədənsə uşaq oyunumuzu xatırladım: "Bənövşə, bəndə düşə, sizdən bizə kim düşə? Adı gözəl, özü gözəl Misir müəllim"...

Sülh isə mütləq gələcəkdir, onun alternativi yoxdur. Böyük dövlətlər aranı qarışdırmasa, balaca dövlətlərin bölüşdürəsi, bu temada dava salası nəyisə olmur. Elə mən bu cızmaqaranı yazanda Alyaskada məlum görüşə hazırlıq gedirdi və orda ABŞ-ı təmsil edən nümayəndə heyətində vitse prezident Cey Di Vens-in adını, daha dəqiqi soyadını görəndə 90-cı illərin əvvəlini xatırladım. Qarabağ münaqişəsinin tarixini bilənlər Sayrus Vensi də unutmaz. O Vensin bu Venslə hansısa qahımlıq əlaqəsi vardımı, bilmirəm, heç araşdırmağa həvəs və məna da yoxdur. Sayrus Vens ağsaqqal amerikalı diplomatlardan biri idi, uzun illər ABŞ eltiasında yüksək vəzifələr tutmuşdu və 1990-cı illərdə BMT nəzdində guya sülh diplomatiyası işlərində məşqulat edirdi. Uzun sözün qısası, bir gün Sayrus Vens Qarabağda, Xankəndi tərəflərdə peyda olmuşdu və küçədə gedəndə bunun ayaqqabısının bağı açılmışdı. Qəfildən, heç kəsin gözləmədiyi halda bir erməni əyilib Sayrus müəllimin ayaqqabısının bağını bağlamışdı və bu, telekameralar vasitəsiylə hər tərəfə yayılmışdı. Qorbaçovun övrəti Raisa xalaya alınan qiymətli erməni hədiyyələrinin nəticəsindən məlumatlı olan olan-qalan və ölən-qalan qarabağlı türklər Sayrus müəllimin ayaqqabısı əhvalatını müşahidə edəndən sonra çamadanlarını kədərlə yığışdırmağa başlamışdılar.

Məhz elə həmin ərəfələrdə Misir müəllim BDU-da müəllim işləməyə başlamışdı və Paşinyanın baldızı oğlu İcevanda çıxan "Kür qırağının seyrangahı" qəzetində yazırdı ki, bizim uşaqlar istedadlıdır, hər mühitdə parlayırlar.




# "Rusiya Güney Qafqaza girəcək..." - Sensasion iddia

## Vaşinqton və Brüssel istisna, hamı regionda sabitlik istəyir? - Fərqli baxış

**"Brüssel və ABŞ istisna olmaqla, hamı Cənubi Qafqazda sabitlik istəyir". "Yeni Müsavat"ın xəbərinə görə, belə bir iddianı amerikalı iqtisadçı və dövlət siyasəti üzrə analitik Cefri Saks irəli sürüb. Saksın fikrincə, Cənubi Qafqaz üçün strategiya şimalı, cənubu və şərqi qərblə birləşdirən sabit, təhlükəsiz və dinc dəhliz olmaqdır. Sənayenin, qabaqcıl texnologiyanın, kənd təsərrüfatının, turizmin və istehsalın bütün növlərini inkişaf etdirmək üçün əla yerə çevrilməkdir.**

"Gələcək budur. Sual isə ona necə gedib çatmaqla bağlıdır. Və bu yol NATO-dan keçmir. Cənubi Qafqazda hər kəsə aydın olmalıdır ki, bölgənin heç bir ölkəsi heç vaxt NATO-ya üzv olmayacaq. Çünki buna qədər orada müharibə olacaq. Rusiya buna heç vaxt icazə verməyəcək", - amerikalı ekspert qeyd edib.

Onun qənaətincə, "ABŞ təxribat yaratmasa, Rusiya Cənubi Qafqazı işğal etmək fikrində deyil". Niyə?

"Çünki regionda çoxlu mühüm regional güclər var. Türkiyə və İran Rusiyanın işğalını istəmir. Rusiya istərdi ki, Cənubi Qafqaz bu güclər arasında bir növ təhlükəsizlik zonasına çevrilsin. Çin də yeri gəlmişkən, Cənubi Qafqazda sabitlikdə çox maraqlıdır, çünki o, Şərq-Qərb kommunikasiyası üçün əsas dəhlizdir və haminin başa düşdüyü kimi, bu, Çinin əsas məqsədidir. Brüssel və ABŞ istisna olmaqla, hamı Cənubi Qafqazda sabitlik istəyir", - Saks əlavə edib.

Belə çıxır, bütün layihələr Rusiya ilə razılaşdırılmalıdır ki, bölgədə sabitlik olsun? Kremlin regiona təsir imkanlarının perspektivi necə görünür?

Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli amerikalı analitikin fikirlərini bölüşmür. Onun fikrincə, Cənubi Qafqaz ölkələri Rusiyanın koloniyası deyil və hər bir dövlətin strateji seçim etmək hüququ var. Partiya mənsubunun sözlərinə görə, ABŞ şirkətinin Zəngəzur dəhlizinə nəzarət etməsi bölgədə sabitliyə daha çox xidmət edə bilər, çünki iqtisadi divident marağı olan tərəf heç zaman stabilliyin pozulmasını istəməz:

"Rusiya bu yola nəzarət etsəydi, tez-tez insidentlər, təxribatlar baş verəcəkdi. Bu da Rusiyanın Azərbaycanla Ermənistan arasında problemi saxlamaq niyyətindən irəli gəlir. Əgər Bakı və İrəvan sülh razılaşması üçün uzaq Birləşmiş Ştatları seçirsə, deməli, yaxında olan Moskva səbəbi özündə axtarmalıdır. Ümumiyyətlə, Rusiya düşünməlidir ki, postsovet respublikaları niyə ondan qaçır? Moldova, Gürcüstan, Ukrayna, MoldovaEAzərbaycan da ondan xeyli uzaqlaşıb. Çünki xalqlara və dövlətlərə yaxşı təkliflərlə yaxınlaşmır.

Ona görə də Rusiya bölgədə dayanıqlı təhlükəsizliyin qarantiyası ola bilməz. İran da dəhlizin açılmasına qarşıdır və bu günlərdə Vilayəti Ermənistanı xəbərdar edib. Deməli, regionun iki ölkəsi Cənubi Qafqazda əbədi sülhdə istəkli deyil. Amma Çinin bizim regionun inkişafında maraqlı olduğunu söyləyə bilərəm".

O ki qaldı NATO üzvlüyünə, S.Əsədli hesab edir ki, heç bir Qafqaz dövləti belə niyyət ortaya qoymayıb: "Azərbaycan bloklara qoşulmamaq siyasəti yürüdür, amma alyansla da əməkdaşlıq edir. Ermənistan və Gürcüstan da əməkdaşlığı davam etdirir, lakin NATO-ya üzvlük real deyil. Rusiya bundan arxayın ola bilər. Amerikalı təhlilçi ola bilsin ki, Ukraynanın NATO-ya üzvlük istəyinin onun üçün hansı nəticələrə gətirib çıxardığını demək istəyib. Yəni Qafqaz ölkələri də alyansa qoşulmaqda həvəsli olmasalar, bölgə dinc həyat sürər, Rusiya qəzəblənməz".

VHP sədrinin müavini bildirib ki, intəhası, Rusiya Qərblə "soyuq müharibəsi"nə görə qonşularını cəzalandırmaq siyasəti yürütməklə heç zaman bu ölkələri və xalqları qazana bilməyəcək: "Ona görə də doktrinasına dəyişiklik etməlidir. Hərbi təcavüzlə ölkələri Avrointeqrasiya və NATO-ya qoşulmaq yolundan çəkindirmək mümkün deyil. Nəticə bəllidir - Rusiya Ukraynanı itirdi. Odur ki, Moskva özü ətrafına qarşı yaxşı olmalıdır, onu təhdid etməməlidir, təzyiq altında saxlamamalıdır. Bu halda, regiona kənar qüvvələr gəlməz, ABŞ və Avropa Birliyi postsovet respublikaları üçün cəlbedici olmaz. Deməli, yaxın qonşu pisdir ki, uzaq Qərbi seçirlər".

❑ Emil SALAMOĞLU,
"Yeni Müsavat"

# Moskva "Tramp yolu"nu dəstəklədi




**"Rusiya Ermənistanı İrəvan lazım bildiyi halda Azərbaycanla "Tramp yolu" adlı nəqliyyat dəhlizi yaratmaq planlarında dəstəkləyir".**

Musavat.com xəbər verir ki, bunu Rusiya Baş nazirinin müavini Aleksey Overçuk deyib.

"Bu müstəvidə bu məsələni nəzərdən keçiririk. Ermənistan bizim strateji müttəfiqimizdir və əgər Ermənistan hesab edirsə ki, onlar üçün nəsə xeyirdir, əlbəttə, biz burada Ermənistanı dəstəkləyirik", - nazir müavini bildirib.

Onun sözlərinə görə, Ermənistanın Baş naziri Nikol Paşinyan yaxın vaxtlarda Rusiyaya səfər edəcək.

"Nikol Vovaeviç iki həftə əvvəl Rusiyada olub. Onu yaxın vaxtlarda yenidən Rusiyada gözləyirik", - o deyib.

Xatırladaq ki, ABŞ, Azərbaycan və Ermənistan liderlərinin Vaşinqton görüşündə razılıq əldə edilən məsələlərdən biri də "Zəngəzur dəhlizi" olub. Naxçıvanla Azərbaycanın qalan ərazisini Ermənistan üzərindən birləşdirəcək bu 42 kilometrlik yol ABŞ şirkətinə həvalə ediləcək və Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu adlanacaq. Prezident Donald Tramp bildirib ki, yol 99 illiyinə icarəyə veriləcək, amma sonradan daha 99 il uzadılacaq. İkinci Qarabağ müharibəsi bitəndən bəri Azərbaycanla Ermənistan bu nəqliyyat yolu ilə bağlı heç cür ortaq məxrəcə gələ bilmirdi. Xüsusilə, Rusiya 10 noyabr bəyanatına istinad edərək bu dəhlizə iddiasını hər fürsətdə ortaya qoyub. İranın mühafizəkar hakimiyyət qolu "Zəngəzur dəhlizi"ni özünün "qırmızı xətti" sayıb.

Yeni MÜSAVAT
N 144 (8754) 16 avqust 2025



# II Qaregin hələ də ABŞ-də veyillənir - məkrli plan

## Paşinyan Vaşinqtondan qayıtsa da, revanşist katolikos geri dönməyib; o kimlərlə gizli danışıqlar aparır?

**Ermənistan Baş naziri Nikol Paşinyan bir neçə gündür kilsə əleyhinə bəyanat verməsə də, bütün ermənilərin katolikosu II Qaregini vəzifəsindən uzaqlaşdırmaq məqsədindən imtina etməyib. Bu barədə "Hraparak" qəzeti məlumat yayıb. "Hakimiyyətdəki mənbələrimiz bildirir ki, Paşinyan kilsəyə qarşı fikirlərindən geri çəkilməyib. Sadəcə bəzi suallara cavab tapa bilmir. Məsələ burasındadır ki, katolikosun taxtı könüllü olaraq tərk etməyəcəyi təqdirdə, siyasi hakimiyyətin hansı addımı atacağı məlum deyil.**

Əslində, Paşinyan başa düşür ki, yeganə yol katolikosu psixoloji cəhətdən yoraraq, istefaya məcbur etməkdir. Yeri gəlmişkən, II Qaregin artıq bir neçə gündür ABŞ-dədir, səfərin məqsədi rəsmi olaraq açıqlanmır və onun nə üçün okeanın o tayına getməsi ilə bağlı təfərrüat yoxdur. Bəzi mənbələr onun səhhətindəki problemlərə görə müalicəyə getdiyini bildirir", - erməni nəşri yazıb.

Xatırladaq ki, II Qaregin avqustun 7-dən ABŞ-də səfərdədir. Katolikos Amerikaya Nikol Paşinyanla eyni gündə gedib. Ermənistan baş nazirinin Vaşinqtona səfəri avqustun 9-da başa çatıb. Paşinyan qayıtsa da, katolikos geri dönməyib. Onun erməni lobbisi ilə konfidensial danışıqlar apardığı iddiaları da səslənir.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzində aparıcı məsləhətçisi Sultan Zahidov "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, hazırda Ermənistanda siyasi establişmentlə kilsə arasında, eyni zamanda, bəzi radikal müxalif qruplaşmalar arasında gərginlik yaşanır. Ekspert vurğuladı ki, bu gərginliyin əsas səbəbi kilsənin və həmin müxalif qüvvələrin Paşinyan hakimiyyətinə qarşı çıxması və insanları açıq-aşkar şəkildə Paşinyan hakimiyyətini devirməyə çağırış etmələridir: "Bununla bağlı kilsənin bəzi nümayəndələrindən açıqlamalar gəlmişdi. Məlumdur ki, Rusiyadan Ermənistana gələn erməni əsilli rusiyalı milyarder "Taşir" şirkətlər qrupunun rəhbəri Samvel Karapetyan Paşinyanın devrilməsi üçün açıq-aşkar bəyanatlar səsləndirib. O, məhz bu səbəbdən həbs edildi. Yeri gəlmişkən, onun həbs müddəti 2 ay da uzadılıb. Qeyd etmək lazımdır ki, Karapetyan həmçinin, Ermənistanın elektrik təchizatını həyata keçirən əsas qurum-"Ermənistan Elektrik Şəbəkələri"nin rəhbəridir. Onun həbsindən sonra Ermənistan parlamentinin qərarı ilə sözügedən şəbəkə milliləşdirildi. Bu, açıq-aşkar Ermənistanda ruspərəst qüvvələrlə hakimiyyət arasında konfrontasiyanın davam etdiyini göstərir. Bu konfrontasiyanın bir tərəfi də kilsəyə çıxır".

Mütəxəssis xatırlatdı ki, Paşinyan bir neçə ay öncə kilsənin iki nüfuzlu rahibini - Baqrat Qalstanyan və Acapaxyanı həbs etdirib: "Onlar Paşinyana qarşı kampaniyanın başında dayanmışdılar. Aydın məsələdir ki, Paşinyanın əsas hədəfi II Qaregindir. II Qaregin hakimiyyətə 1999-cu ildə gəlib, parlamentdə güllənbaran baş verən ərəfədə kilsənin başına keçib. Bəzi mənbələrin məlumatına görə, həmin hadisənin arxasında da Rusiya xüsusi xidmət orqanları dayanırdı. Daha sonra Köçəryanın və Qareginin Ermənistanda dünyəvi və dini institutlar üzərində hakimiyyəti ələ keçirməsi ilə Ermənistan tam şəkildə Rusiyanın nəzarətinə keçdi. Bu baxımdan, II Qareginin Rusiyaya yaxın olması şübhə doğurmur. Onun qardaşı Nersisyan da erməni dini icmasının rəhbəridir, Rusiyada böyük biznesi var. Burdan yola çıxaraq Qareginin də Rusiyada biznesi olduğunu qeyd etmək olar. Rusiyanın həm kilsə, həm müxalifət, həm də diaspora vasitəsilə Paşinyanı zəifləmtməyə çalışması istisna olunmamalıdır".

S.Zahidovun fikrincə, II Qareginin ABŞ-yə səfərinin əsas məqsədi Ağ Evin Azərbaycan və Ermənistan arasında sülh prosesi ilə bağlı mövqeyini dəyişməyə çalışmaqdır:

"II Qaregin artıq bir həftədir ABŞ-dədir. Rəsmi mənbələrə görə o, diaspora və Şərqi Amerika yeparxiyasının nümayəndələri ilə görüşlər keçirir. Lakin ehtimal olunur ki, o konqresmenlər və senatorlarla da görüşəcək. Avqustun 8-də Vaşinqtonda tarixi görüş keçirildi, Azərbaycan və Ermənistan arasında sülhə dair birgə bəyannamə imzalandı. Aydın məsələdir ki, bunu həzm edə bilməyən qüvvələr var. İstər Rusiya, istərsə də İrandan gələn açıqlamalar bunu göstərir. Bu qüvvələr öz məqsədlərinə nail olmaq üçün üçüncü tərəflərdən istifadə edəcəklər ki, bunlardan biri II Qaregin və erməni kilsəsidir. Buna görə də düşünürəm ki, II Qareginin ABŞ-yə səfərinin əsas məqsədi ABŞ rəsmilərinin sülh bəyannaməsi və Vaşinqton görüşü ilə bağlı düşüncələrini dəyişməkdir. Lakin II Qareginin zəfər qazanacağını düşünmürəm. ABŞ-nin Zəngəzur dəhlizinin açılmasında öz geosiyasi maraqları var. ABŞ regionda geosiyasi və geoiqtisadi rıçaqlarını artırmağa çalışı, eyni zamanda Rusiya və İranı "bypass" edəcək layihələrin reallaşmasına cəhd göstərir. Yəni ABŞ-nin həm geosiyasi, həm də iqtisadi dividentləri var. Kilsənin başında kimin olacağından asılı olmayaraq, Ağ Evin məsələ ilə bağlı siyasətində hər hansı dəyişiklik olacağı real deyil".

O ki qaldı Paşinyanın uzaqlaşdırılmasına, ekspertin fikrincə, məhz II Qareginin buna nail olması müşkül məsələdir: "Ermənistanda kilsənin nüfuzu böyükdür. Ermənistanda radikal dinəmeyli şəxslər çoxdur. Paşinyan elə bir strategiya seçib ki, bəyanatları və siyasi açıqlamaları ilə kilsənin və xüsusilə II Qareginin nüfuzunu xalqın gözündə aşağı salmağa çalışır. II Qaregin də öz növbəsində Paşinyan hakimiyyətə gəldiyi gündən onu tənqid edir, onu Ermənistanı satmaqda ittiham edir. Görünən odur ki, qarşılıqlı ittihamlar səslənməkdə davam edəcək. Kilsənin Paşinyanı devirə biləcəyinə inanmıram. Həm kilsənin, həm radikal müxalifətin, həm də diasporanın, həm də Rusiyaya bağlı qüvvələrin birgə fəaliyyəti mövcuddur. Hələ ki, söhbət çevrilişdən getmir. Hesab edirəm ki, hazırda məqsəd Paşinyanın 2026-cı il seçkilərində qalib gəlməməsidir. Rəy sorğularına əsasən Paşinyanın partiyası üstün mövqedə deyil. Sözsüz ki, 1 il zaman var, vəziyyət dəyişə bilər. Amma görünən odur ki, kilsəyə qarşı sərt bəyanatlar Paşinyanın nüfuzuna müsbət təsir göstərmir".

Qeyd edək ki, əsl adı Ktriç Nersisyan olan II Qaregin bütün ermənilərin 132-ci katolikosudur. O, 27 oktyabr 1999-cu ildən Erməni Apostol Kilsəsinə rəhbərlik edir.

Ktriç Nersisyan 21 avqust 1951-ci ildə Ermənistanın Eçmiədzin rayonunun Voskehat kəndində anadan olub. 1965-ci ildə Eçmiədzin İlahiyyat Seminariyasına daxil olub, 1971-ci ildə oranı bitirib, daha sonra həmin seminariyada müəllim işləyib. 1970-ci ildə diakon (kahinliyin ilk, ən aşağı səviyyəsində kilsədə xidmət edən şəxs), 1972-ci ildə isə keşiş təyin edilib. Daha sonra katolikos I Vazgenin əmri ilə teoloji təhsilini davam etdirmək üçün Avstriyanın paytaxtı Vyanaya göndərilib.

Ktriç Nersisyan dini təhsilini 1975-ci ildə Almaniyanın Bonn Universitetində davam etdirib.

1979-cu ildə Eçmiədzinə qayıdıb, daha sonra Zaqorsk şəhərinə gedib və orada Rus Pravoslav Kilsəsinin Moskva İlahiyyat Akademiyasında aspirantura təhsili alıb.

Ktriç Nersisyan 1980-ci ilin martından 1999-cu il iyulun 4-nə kimi bütün ermənilərin katolikosu I Vazgenin baş vikarı (dini vəzifə) olub və arxiyepiskop rütbəsinə yüksəlib. 27 oktyabr 1999-cu ildə katolikos I Qareginin ölümündən sonra Erməni Apostol Kilsəsinin Milli Kilsə Şurası (ali idarəetmə orqanı) arxiyepiskop Qaregin Nersisyanı bütün ermənilərin 132-ci patriarxı və katolikosu seçib.

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**

# Paşinyan Rusiyaya gedir



**Ermənistanın baş naziri Nikol Paşinyanın yaxın vaxtlarda Rusiyaya səfəri gözlənilir. Musavat.com xəbər verir ki, bunu jurnalistlərə Rusiya baş nazirinin müavini Aleksey Overçuk bildirib. Qeyd edək ki, Ermənistanın baş naziri son dəfə Rusiyada iyul ayında olub və Altayda keçirilən Beynəlxalq Ekoloji Konfransda iştirak edib.**

# Saakaşvili: "Trampın Bakıya münasibətinin səbəbi..."



**"ABŞ Prezidenti Donald Trampın Azərbaycana qarşı xüsusi, mehriban münasibəti təsadüfi deyil".**

Teleqraf xəbər verir ki, bunu Gürcüstanın sabiq prezidenti Mixail Saakaşvili deyib. "2012-ci ildə Donald Tramp Batumidə "Trump Tower"in tikintisinə başlamışdı. Amma 2013-cü ildə İvanişvili tikintini dayandırdı, Azərbaycan isə bütün bunları gördü və 2013-cü ildə Bakıda tez bir zamanda "Trump Tower" tikildi. Yeni Amerika prezidentinin Azərbaycana qarşı xüsusi mehribançılığı təsadüfi deyil", - sabiq prezident bildirib.

# Brüssel "casus şəbəkəsi"ni sərhəddən çıxarmır



**Avropa Birliyinin Ermənistandakı müşahidə missiyası (EUMA) fəaliyyətini davam etdirəcək, onun mandatında mümkün dəyişikliklər isə İrəvan və Brüssel arasında müzakirə olunacaq. Bu barədə Report-a AB-nin xarici siyasət üzrə rəsmi nümayəndəsi Anita Hipper bildirib.**

"Missiyanın səlahiyyətlərinə Ermənistan-Azərbaycan sərhədinin Ermənistan tərəfindən yerlərdəki vəziyyəti müşahidə edərək məlumat vermək daxildir", - AB nümayəndəsi bildirib.

O qeyd edib ki, AB Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanmasını alqışlayıb və tərəfləri onu tezliklə imzalamağa və ratifikasiya etməyə çağırıb.

Xatırladaq ki, daha əvvəl Ermənistanın Azərbaycanla sərhədə yerləşdirilmiş AB-nin müşahidə missiyasının (EUMA) fəaliyyətinə xitam vermək öhdəliyini götürməsi ilə bağlı məlumat yayılmışdı.

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025

# "Azərbaycanlı ana kìmi düşmənì bağışlamıram"

## Afaq Bəşirqızı: "Gündüz həyatın çətinlikləri ilə ağlayır, axşam isə tamaşada komediya oynayırsan"



**Avqustun 15-də Azərbaycan teatr və kino sənətinin parlaq simalarından, səhnəmizin unudulmaz obrazlarının yaradıcısı, Xalq artisti Afaq Bəşirqızı ömrünün 70-ci baharını qarşılayıb. Prezident İlham Əliyevin imzaladığı Sərəncamla Afaq Bəşirqızı Azərbaycan mədəniyyətinin inkişafındakı böyük xidmətlərinə görə "Şərəf" ordeni ilə təltif olunub.**

"Yeni Müsavat"ın suallarını cavablandıran Afaq Bəşirqızı ilə yubiley söhbətimizi təqdim edirik:

**- Afaq xanım, həm "Şərəf" ordeni almağınız, həm də 70 illik yubileyiniz münasibəti ilə sizi ürəkdən təbrik edirik. Sənətkar üçün bu yaş nə deməkdir - uğurların hesabatı, yoxsa hələ də həyata, səhnəyə qarşı planların olması?**

- Hər bir aktyor üçün ən böyük mükafat tamaşaçının sevgisi, səhnədə ayağa qalxaraq güllərlə, alqışlarla ifadə etdiyi minnətdarlıqdır. Lakin dövlətin ali diqqətini qazanmaq, sənətkar əməyinin ölkə rəhbəri tərəfindən yüksək qiymətləndirilməsi isə bu sevincə xüsusi bir dəyər qatır. Elə bu gün də - ölkəmizin Prezidenti həm daxili, həm də xarici siyasətdə gərgin və qızğın fəaliyyətlə məşğul olduğu bir dövrdə onun məhz sənət dünyasının bir nümayəndəsini, Afaq Bəşirqızını xatırlaması, ona "Şərəf" ordeni təqdim etməsi mənim üçün misilsiz bir xoşbəxtlikdir. Bu, təkcə mənim deyil, sənətə verilən dəyərin, Azərbaycan mədəniyyətinə göstərilən qayğının təntənəsidir. Bunun üçün mən dərin minnətdarlığımı bildirirəm - həm doğma xalqıma, həm də möhtərəm Prezidentimə.

**- Həyatınız boyu çox çətin qərarlar vermisiniz. Bu gün dönüb baxanda, hansı qərarlarınızla fəxr edirsiniz, hansında isə "kaş başqa cür olardı" deyirsiniz?**

- Heç vaxt "bunu etdim, görəsən nəticəsi nə olacaq?" deyə düşünməmişəm. Artıq bir işi etmişəmsə, deməli, bunu bilərək və ürəkdən etmişəm, istər yaxşı, istər pis.

Qürur hissini isə o zaman yaşayırsan ki, arzuların gerçəkləşir, həyata çevrilir. Həyatın keşməkeşi içində bu arzuları həyata keçirmək üçün mübarizədən qalib çıxırsan - məhz o an insan özünü qürurlu hiss edir.

Təbii ki, bütün arzularımı reallaşdıra bilmədim, çünki illər sürətlə keçdi, həyatın qayğıları çoxaldı. Mənim qayğım təkcə sənətimlə bitmirdi; evim, həyat yoldaşım, ailəm, qohum-əqrabam da diqqətimi tələb edirdi. Bütün bunlarla yanaşı, sən həm də sevdiyin sənətə sadiq qalmalı idin - gündüz həyatın çətinlikləri ilə ağlayır, axşam isə tamaşada komediya oynayırsan.

**- Siz teatr və kino səhnəsinin canlı şahidisiniz. Bugünkü Azərbaycan incəsənətinə baxanda, sizi ən çox nə sevindirir, nə isə narahat edir?**

- Həmişə teatrın da, kinonun da problemləri məni düşündürüb, narahat edib. Bu problemlər hər zaman olub və olacaq da, çünki yaradıcılıq olan yerdə problem olmadan yaşamaq mümkün deyil. Mənim arzum budur ki, bu problemlər həmişə yaradıcılıqla paralel olsun. Yəni problem olsun, amma yalnız yaradıcılıq problemləri - çünki onları istedad və sevgi ilə dəf etmək mümkündür.

Buna görə də inanıram ki, hər şey yaxşı olacaq. Lakin mən bütün incəsənət xadimlərinə deyirəm: bizə verilən bütün fəxri adlar, ordenlər, mükafatlar böyük bir məsuliyyət deməkdir. Biz bu həqiqətin fərqində olmalı, sabah alnı açıq olaraq bizi təltif edən insanın qarşısına çıxanda ona layiq olduğumuzu göstərə bilmək üçün hərəkət etməliyik. Bizə mənsub olduğumuz sahənin hesabatını vermək borcumuzdur. Ona görə də hər birimiz buna ciddi yanaşmalı və düzgün riayət etməliyik.

**- Bəzən fəxri adların yığışdırılması barədə müzakirələr gedir. Bu məsələyə necə baxırsınız?**

- Mən fəxri adların ləğv edilməsi məsələsinə yaxşı baxmıram. Təsəvvür edin, sənətkar illərlə çalışır, zəhmət çəkir ki, zirvəyə çatsın - əvvəl Əməkdar artist, sonra Xalq artisti adına layiq görülsün və onun əməyini tamaşaçı sevgi ilə qiymətləndirsin. Belə adlar yalnız əslinə layiq olan, halal zəhmət çəkmiş sənətkarlar üçün mənalıdır. Təəssüf ki, bəziləri var ki, bu adları halal almayıb. Onlar onsuz da alıblar, amma əsl dəyəri, tamaşaçı sevgisini qazana bilmirlər.

**- Uzun illər boyu erməni və azərbaycanlı xalqlar arasında dərin ziddiyyətlər yaşanıb. Sizin fikrinizcə, real və səmimi barışıq mümkündürmü? Yoxsa bu, yalnız kağız üzərində qalacaq bir anlayışdır?**

- Bu, siyasətdir. Lakin təəssüf ki, qəlblər siyasətlə sağalmır. Biz saysız-hesabsız şəhidlər vermişik. Doğrudur, dövlətimizin rəhbəri nə deyirsə, mən onunla həmfikirdə olmalı, həmişə dövlətimizin maraqlarını qorumağa çalışmalıyam. Lakin mən bir ana kimi, azərbaycanlı qadın kimi və Azərbaycan mədəniyyətinin aparıcı qüvvəsi kimi heç vaxt düşməni bağışlamıram.

**- 44 günlük Vətən müharibəsindən az qala 5 il ötür. Lakin hələ də bu müharibə, qələbəmiz, zəfərimiz barədə film çəkilməyib. Sizcə, səbəb nədir?**

- Əvvəla, müharibə mövzusunda film çəkmək heç də asan məsələ deyil. Xüsusilə 44 günlük müharibəni ekranlara gətirmək çox çətindir. Hələ də biz oradakı hadisələri, əsgərlərimizin qəhrəmanlıqlarını qulaqdan qulağa eşidirik və dramaturqlar, yazarlar özləri üçün qeydlərini edir, onlarda fikirlər yaranır. Beləliklə, hesab edirəm ki, hadisələrin tam mənzərəsini əks etdirmək üçün erkəndir.

İkincisi, biz rejissorlarımıza lazım olan qayğını göstərə bilmirik. Azərbaycanda çox istedadlı kino adamları var, lakin onlara dəstək olmaq, lazımi şərait yaratmaq vacibdir. Müasir aparaturalar təmin edilməli, yaradıcılıq imkanları genişləndirilməlidir ki, onların istedadı özünü tam şəkildə göstərsin.

**- Siz hər zaman sözünüzü açıq deyən sənətkar kimi tanınmısınız. Heç olubmu ki, açıq danışmaq sizə həm peşəkar, həm də şəxsi həyatda baha başa gəlsin?**

- Heç vaxt. Çünki mən həmişə doğru danışmışam. Heç kimə şər atmamışam, heç kimin şəxsiyyətinə sataşmamışam. Kiminsə ayağından dartmamışam, həqiqətən olan problemləri danışmışam. Ən böyük əhəmiyyətlisi isə budur ki, mən şəxsi ambisiyamı güdüb heç vaxt hər hansı məsələni dilimə gətirməmişəm. Mən olanı olduğu kimi danışmışam və bunu tənqidi yox, kömək məqsədilə etmişəm. Çünki həmin problem 2-3 adama ziyan vurmur, ümumi bir quruma, sənət sahəsinə ziyan vurur. Ona görə də mən nə danışdığıma görə peşman olmamışam, heç vaxt da olmayacağam. Həmişə istəmişəm ki, hər kəs fikirlərini açıq söyləsin və cəmiyyətə düzgün çatdırsın.

**- "Evləri köndələn yar" filmində Darçınbəyim, "Yaşıl eynəkli adam"da Zəhra, "Bala başa bəla"da Suğra və əlbəttə ki, "Söylü" obrazı - tamaşaçıların yaddaşına həkk olunmuş rollarınız çoxdur. Amma Afaq Bəşirqızı deyəndə çoxlarının göz önünə məhz Söylü gəlir. Bəs sizin üçün bu obrazlardan hansı daha doğmadır və niyə?**

- Bütün obrazlar mənim ən sevimli "balalarımdır". Ana övladlarını tək qoymadığı kimi, mən də obrazlarımı tək qoymuram. Lakin hər bir obraz mənim ruhumdan, enerjimdən bir parça aparıb, bəzən sağlamlığımı da sınağa çəkib. Buna baxmayaraq, onların hamısı mənim üçün doğmadır və hər biri mənim yaradıcılığımın bir parçasıdır.

**- Teatrda olduqca zəngin yaradıcılıq yolunuz olsa da, kinoda sizi çox az görmüşük. Bu sizin şəxsi seçiminizdir, yoxsa çəkilmək istədiyiniz rollar sizə təklif olunmur?**

- Heç məni filmə dəvət etməyiblər. Dəvət etsinlər ki, gedim. Amma tamaşalarım, bəli, çoxdur.

**- Dünyada elə bir insan, bir şəxsiyyət varmı ki, onunla söhbət etmək, bir masa arxasında oturmaq arzunuz olsun?**

- Bəli, belə bir arzum olub. Heydər Camal... Bilirsiniz ki, o, Moskvada yaşayan görkəmli ziyalımız idi. Təəssüf ki, özü də, oğlu Orxan Camal da artıq dünyasını dəyişib. Heydər Camal mənim üçün həmişə əlçatmaz bir qüvvə, bir mələk və həddindən artıq zəka və dərinliyə malik şəxsiyyət olub. Onun artıq aramızda olmaması mənim üçün böyük bir itki və təəssüf doğurur.

Bununla yanaşı, mənə ən çox təsəlli verən, ruhumu qidalandıran əsərlər Oşonun romanlarıdır. Onların dərinliyi və hikməti həmişə mənə ilham verib.

**- 70 yaş yubileyinizdə ən böyük arzunuz nədir - şəxsi həyatla, sənətlə və Azərbaycanla bağlı?**

- Mən həmişə Azərbaycanın inkişafını arzulamışam, xalqımın rifahını istəmişəm və ölkəmizin lider dövlət olaraq ön sıralarda olmasını arzulamışam. Həmişə Prezidentimizin qətiyyətli qərarları ilə Azərbaycanın bu yüksək mərtəbəyə çatmasını istəyirdim. Ona cansağlığı, xalqıma isə rifah və xoşbəxtlik arzulayıram.

Və yaşımdan asılı olmayaraq, yaşamaq istəyirəm. Arzum indi balalarımızın sağ-salamat böyüməyi, nəvələrimdən heç olmasa birinin toyunu görmək istəyirəm. Onları xoşbəxt görmək istəyirəm...

**❑ Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025

# Banklardan əhaliyə zərbə - Bu pullar qaytarılmayacaq

## Yüksək "keşbek" vədləri ilə rəqabətə qoşulanlar indi faizləri endirir; hüquqşünas deyir ki...

**Müştərilərin diqqətini çəkmək və gündəlik nağdsız ödənişləri stimullaşdırmaq üçün bankların uzun illərdir istifadə etdiyi üsullardan biri də "keşbek kampaniyaları"dır. Yəni kartla edilən ödənişlərə görə müştəriyə müəyyən faizlə pul geri qaytarılır. Son illərdə 2X və daha yüksək keşbek vədləri ilə rəqabətə qoşulan banklar indi faizləri endirir, hətta "keşbek kampaniyaları"nı dayandıran, onlardan imtina edən banklar da var.**




İqtisadçı ekspert Xalid Kərimli Modern.az-a bildirib ki, keşbek faizləri banklar üçün əslində əlavə bir xərc mənbəyidir. İqtisadçının sözlərinə görə, bu vəsaitlər birbaşa bankların öz büdcəsi hesabına qarşılanır və hər hansı qanunla tənzimlənmir. Yəni bu sadəcə olaraq, bankların müştəri cəlb etmək üçün könüllü tətbiq etdikləri bir təşviqdir.

Bəs bankların bu qərarı verməyə səlahiyyəti çatırmı? Bu, müştərilərin hüquqlarının pozulması deyilmi?

Qeyd edək ki, "keşbek" kampaniyaları banklar üçün həm müştəri cəlb etmə, həm də mövcud müştəriləri aktiv saxlamaq baxımından effektiv bir alət olub. Lakin son dövrlərdə bu kampaniyalarda azalmalar və ya dəyişikliklər müşahidə olunur. Mütəxəssislər bu tendensiyanın bir neçə əsas səbəbini izah edir. Qeyd edilir ki, banklar üçün "keşbek"lər maliyyə baxımından yük yaradır. Xüsusilə yüksək inflyasiya və artan əməliyyat xərcləri fonunda bu tip bonuslu sistemləri davam etdirmək çətinləşir. Beynəlxalq ödəmə sistemlərinin (Visa, Mastercard və s.) komissiya xərcləri də bu yükə əlavə olunur. Bir neçə il öncə keşbek rəqabəti müştəri qazanmaq üçün əsas vasitə idi. Lakin indi demək olar ki, hər kəsin bir neçə bank kartı var və yeni müştəri qazanmaq əvvəlki qədər asan deyil. Mərkəzi Bank və digər nəzarət orqanlarının komissiya və gəlir modellərinə müdaxiləsi bəzən bankların keşbek strategiyalarını yenidən nəzərdən keçirməsinə səbəb olur. Artıq müştərilər təkcə keşbeklə kifayətlənmir, əlavə xidmətlər (mobil bankçılıq, sürətli dəstək, fərdi təkliflər və s.) də gözləyir.

Hüquqşünas Əkrəm Həsənov "keşbek" kampaniyaları ilə bağlı "Yeni Müsavat"a açıqlamasında fikrini bölüşüb: "Bəli, keşbek kampaniyaları bankların öz təşəbbüsü ilə həyata keçirdikləri kampaniyalar idi və bu, heç də bütün banklarda tətbiq olunmurdu. Bank müəyyən edirdi ki, əgər müştəri onun xidmətlərindən istifadə edərsə, o zaman ödənişlərin müəyyən faizini geri qaytaracaq. Bu, bankın seçimindən asılı idi - istəsə edərdi, istəməsə etməzdi. Əgər bank bu kampaniya ilə bağlı üzərinə öhdəlik götürübsə, yerinə yetirməli idi. Amma istənilən vaxt bu kampaniyadan imtina edə, yaxud da keşbek faizini azalda bilər.

Bu cür kampaniyaların əsas məqsədi müştəriləri cəlb etmək və onların həmin bankın xidmətlərindən istifadə etməsini təmin etmək idi. Bu hal, müəyyən mağazaların keçirdiyi kampaniyalara bənzəyir - məsələn, "bir məhsul alana digəri 50% endirimlə verilir" və ya "2 mal alana 1-i hədiyyə" kampaniyaları kimi.

Bəs indi niyə bu cür kampaniyalar dayandırılıb? Çünki bu, banklar üçün əlavə xərc deməkdir. Artıq insanlar nağdsız ödənişə alışıb və istifadə etdikləri bankları da müəyyən ediblər. Müştərinin bir bankdan digər bankın xidmətinə keçmək ehtimalı çox azdır. Bu səbəbdən də banklar belə kampaniyalardan geri çəkilir. Üstəlik, böyük banklar ümumiyyətlə bu cür təşviqlərə ehtiyac duymur, çünki onların müştəri bazası onsuz da kifayət qədər genişdir. Kiçik və orta banklar isə bu sahədə böyük banklarla rəqabətə tab gətirə bilmirlər".

Mütəxəssislərə görə banklar üçün keşbek kampaniyaları ilk baxışda müştəri üçün cəlbedici görünən sadə bir mexanizm olsa da, əslində bu sistemin davamlılığı üçün xeyli xərc tələb olunur. Xüsusilə inflyasiya, valyuta dəyişmələri və əməliyyat xərclərinin artması fonunda bu kampaniyalar banklar üçün maliyyə yükünə çevrilə bilər. Digər tərəfdən, kart bazarının doyması və rəqabətin fərqli müstəvilərə keçməsi nəticəsində keşbek artıq müştəri qazanmaq üçün yeganə vasitə deyil. Bankların bu istiqamətdə alternativ axtarışlara çıxması nəticəsində loyallıq proqramları, partnyorlu endirimlər, spesifik sahələr üzrə keşbek (məsələn, yalnız market, yanacaq və ya restoran xərclərində) və ya qısa müddətli kampaniyalar daha geniş yayılmağa başlayıb. Eyni zamanda, abunəlik əsaslı modellər də inkişaf edir - yəni aylıq və ya illik ödəniş müqabilində daha yüksək keşbek və əlavə xidmətlər təqdim olunur. Bu yanaşmalar həm daha çevik, həm də banklar üçün daha dayanıqlı gəlir modelidir.

Qlobal təcrübəyə nəzər saldıqda, ABŞ bu sahədə öncüllərdən biridir. Orta hesabla kredit kartları 1-2% standart keşbek təklif edir, bəzən rotasiya edən kateqoriyalarda bu göstərici 5%-ə qədər yüksəlir. Bu model illərdir effektiv şəkildə işləyir, xüsusilə də rəqabətin çox yüksək olduğu bazarda banklar və fintech şirkətləri real vaxtda keşbek, personalizə olunmuş təkliflər və mobil tətbiq vasitəsilə asan geri qaytarma imkanları ilə fərqlənməyə çalışır. Böyük Britaniyada isə keşbek çox vaxt loyallıq proqramları ilə inteqrasiya olunur və bank müştəriyə nağd pul əvəzinə, hədiyyə xalları, təyyarə milləri və digər təkliflər təqdim edir. Avstraliyada isə sərt regulyasiya səbəbilə keşbek modelləri daha zəif inkişaf edib və banklar daha çox sığorta, təhlükəsizlik və təcrübə əsaslı xidmətlərə yönəlib.

Sinqapur və digər yüksək gəlirli ölkələrdə banklar daha çox premium müştərilərə yönəlmiş keşbek modelləri tətbiq edir. Bu sistemlərdə keşbek faizləri yüksək olsa da, çox vaxt aylıq xərcləmə limitləri və kateqoriya məhdudiyyətləri tətbiq olunur. Digər tərəfdən, Hindistan kimi inkişaf etməkdə olan ölkələrdə keşbek təkcə bank kartları deyil, eyni zamanda mobil ödəniş platformaları və fintech xidmətləri üzərindən də geniş tətbiq olunur. Xüsusilə mikrokeşbek modelləri burada geniş yayılıb.

Qlobal trendlər göstərir ki, keşbek anlayışı təkcə nağd pul qaytarmaqdan ibarət deyil. Artıq bu sistem müştəri davranışlarını yönləndirmək, sadiqliyi artırmaq və şəxsi təkliflər vermək üçün strateji bir alətə çevrilib. Banklar süni intellekt və data analizindən istifadə edərək müştərilərə fərdi keşbek təklifləri təqdim edir. Eyni zamanda, tərəfdaş markalarla işləyərək yalnız seçilmiş məhsul və ya xidmətlər üzrə yüksək keşbek imkanları yaradılır. Bununla yanaşı, oyun elementləri də əlavə edilərək müştərinin motivasiyası artırılır. Son nəticədə, keşbek kampaniyalarının klassik forması bəzi bazarlarda zəifləsə də, onun müasir və fərdiləşdirilmiş versiyaları hələ də bank strategiyalarında mühüm yer tutur. Gələcəkdə bu sistemlərin daha da inkişaf edərək müştəri təcrübəsini zənginləşdirəcək innovativ modellərə çevriləcəyi gözlənilir.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Başçını ittiham edən qohumu barədə qərar verildi



**Ali Məhkəmədə Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin Birləşmiş Həmkarlar İttifaqının sədri İsrafil Bəkirov və eks-baş mühasibi Rəşad Babayevin barələrindəki qərardan verdikləri kassasiya şikayəti üzrə məhkəmə yekunlaşıb.**

Musavat.com xəbər verir ki, Rəşad Babayev Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Seymur Orucovun qohumudur. Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin Birləşmiş Həmkarlar İttifaqının sədri İsrafil Bəkirovla birgə hakim qarşısına çıxarılan baş mühasib Rəşad Babayev 194 min manat mənimsəməkdə ittiham edilib.

Rəşad Babayev ilkin məhkəmə instansiyasında demişdi ki, əvvəllər rabitə sahəsində mühasib işləyib. Sonradan Rabitə İşçiləri Müstəqil Həmkarlar İttifaqı Respublika Komitəsinin sabiq sədri Seymur Orucovun vasitəsilə Bakı Telefon Rabitəsi İstehsalat Birliyinin Birləşmiş Həmkarlar İttifaqına baş mühasib vəzifəsinə təyinat alıb. İttihama görə o, ittifaqda mühasib kimi işlədiyi vaxt "ASAN İmza" ilə təsdiq edildikdən və ya özü tərəfindən imzalanmasına nail olduqdan sonra, 2020-ci ilin martından 2022-ci il iyun ayına kimi aylıq özünə ən çoxu 10 min 842 manat 97 qəpik maaş yazıb. Beləcə qurumun 194 min manatını mənimsəyib.

Rəşad Babayev məhkəmədə Seymur Orucovun adını çəkməklə mənimsəməyə məcbur edildiyini deyib. Sabiq baş mühasib qurumda Seymur Orucovun tapşırıqlarını da yerinə yetirdiyini bildirib. Onun sözlərinə görə, ittifaqda müqavilə əsasında xidmət göstərən Gülbəniz adlı qadının oğlu Fərid Bayramovun Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin (Rabitə) Dövlət Radiotezliklər İdarəsinə işə bərpa olunmasına köməklik göstərəcəyini, lakin qarşılığında 20 min manat alınacağını deyib. Bu barədə Seymur Orucovla danışıb və sonuncu Fəridi işə götürə biləcəyini bildirib. Rəşad Babayev məhkəmədə Fəridin işə düzəlməyinə görə ailəsindən aldığı 20 min manatı Seymur Orucova verdiyini də iddia edib. Seymur Orucov icra başçısı təyin olunduqdan sonra Fəridin işə düzəlməsi ilə bağlı məsələ dayandırılıb. Bir müddət sonra Gülbəniz adlı qadın oğlu işə düzəlmədiyi üçün baş mühasibə verdiyi 20 min manatı geri tələb edib. Rəşad Babayev bu barədə Seymur Orucova məlumat verib. İcra başçısı isə Gülbənizə narahat olmamasını bildirib. Bundan sonra Rəşad Babayev ittifaqın vəsaitlərinin xərclənməsində maxinasiyaya yol verməyə başlayıb. Məhkəmənin qərarı ilə Rəşad Babayev Cinayət Məcəlləsinin külli miqdarda dələduzluq, mənimsəmə, vəzifə saxtakarlığı, vəzifə səlahiyyətlərindən sui-istifadə etmədə təqsirli bilinib və 7 il müddətə azadlıqdan məhrum edilib. İsrafil Bəkirov isə Cinayət Məcəlləsinin səhlənkarlıq maddəsi ilə təqsirli bilinib, 2 il müddətə azadlığın məhdudlaşdırılması cəzası təyin edilib. Ayağına elektron qolbaq bağlanıb. Məhkəmə Rəşad Babayevin ifadəsi əsasında Seymur Orucov barəsində xüsusi qərardad çıxarmayıb.

Rəşad Babayevlə İsrafil Bəkirovun barələrindəki hökmdən apellyasiya şikayətləri hakim İbrahim İbrahimlinin sədrliyi ilə araşdırılıb. İlkin isntansiyada Rəşad Babayevə 7 il müddətinə azadlıqdan məhrumetmə cəzası təyin olunub. Apellyasiya instansiyasında cəza 6 il 9 aya endirilib. İsrafil Bəkirovun cəzası isə dəyişdirilmədən saxlanılıb.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Ölkədə yeni sistem - Borclular üçün qaçış yolu bağlanır

**Prezident İlham Əliyev "Xüsusi icra məmurları haqqında" Qanunu imzalayıb. Bununla Azərbaycanda məhkəmə və digər səlahiyyətli orqanların qərarlarının icrasını həyata keçirəcək xüsusi icra məmurları adlı yeni təsisat yaradılır. Qanuna görə, xüsusi icra məmuru məhkəmələrin və qanunla icrası icra məmurlarına həvalə edilmiş digər orqanların sənədlərini icra etmək üçün şəhadətnamə almış, peşəkar əsaslarla fəaliyyət göstərən fiziki şəxsdir. O, məcburi icra orqanı statusuna malik olsa da, dövlət hakimiyyətinin nümayəndəsi hesab edilmir. Xüsusi icra məmurunun fəaliyyəti sahibkarlıq fəaliyyəti sayılmır və yalnız qanuna tabedir.**



Ədliyyə Nazirliyinin İcra Xidmətinin rəisi Vidadi Məmmədov APA-ya açıqlamasında bildirib ki, "Xüsusi icra məmurları haqqında" Qanun məhkəmə və digər dövlət orqanlarının qərarlarının daha səmərəli, operativ və şəffaf icrasını təmin etmək məqsədilə hazırlanıb. Onun sözlərinə görə, dövlət icra məmurlarının üzərinə düşən iş yükünün çoxluğu icra proseslərinin ləngiməsinə səbəb olurdu:

"Bu fonda xüsusi icra məmurları institutu icra mexanizminin çevikliyini və operativliyini artırmağı hədəfləyir. Bir sıra ölkələrdə tətbiq edilən bu model özünü doğruldub və məhkəmə qərarlarının icrasında effektivliyi artırıb. Azərbaycanda da bu institut dövlət icra məmurlarına əlavə dəstək kimi nəzərdə tutulur".

Yeni mexanizm qarışıq icra modeli üzərində qurulacaq. Bu sistemdə qərarların icrasını həm dövlət, həm də özəl əsaslarla fəaliyyət göstərən icra məmurları həyata keçirəcək. Gürcüstan, Bolqarıstan, Ukrayna, Qazaxıstan, Portuqaliya, Serbiya, İslandiya, İsveçrə və İrlandiya kimi ölkələrdə tətbiq olunan bu modelin üstünlükləri icra yükünün bölüşdürülməsi, qərarların daha çevik və məsuliyyətli şəkildə yerinə yetirilməsidir.

"Xüsusi icra məmuru göstərdiyi xidmətə görə birbaşa məsuliyyət daşıyır ki, bu da onu işinə daha məsuliyyətlə yanaşmağa sövq edir. Ölkə üzrə mərhələli tətbiq nəzərdə tutulur və dövlət icra sistemindəki ağır yük tədricən xüsusi icra məmurları ilə bölüşdürüləcək", - V. Məmmədov vurğulayıb.

Xüsusi icra məmuru ali təhsilli Azərbaycan vətəndaşı ola bilər. Namizədlər test və müsahibədən ibarət müsabiqədən keçəcək, minimum üç aylıq icbari hazırlıq və stajkeçmə proqramına cəlb olunacaq. Müsabiqə komissiyasında Ədliyyə Nazirliyi, Xüsusi İcra Məmurlarının Palatası, Məhkəmə-Hüquq Şurası, Vəkillər Kollegiyası və Notariat Palatasının nümayəndələri təmsil olunacaq. Müsabiqə və təlim mərhələlərini uğurla başa vuran namizədə şəhadətnamə və xidməti vəsiqə təqdim olunacaq, andiçmədən sonra o, vəzifəsinin icrasına başlayacaq.

Xüsusi icra məmurları cinayət və inzibati xəta işləri, dövlət orqanlarının tərəf olduğu bəzi mübahisələr və uşağın mənafeyi ilə bağlı işlər istisna olmaqla, digər bütün qərarların icrasını həyata keçirə biləcəklər. Uşağın mənafeyi ilə bağlı işlərdən yalnız aliment tələblərinə dair qərarların icrası onlara veriləcək. İlkin mərhələdə xüsusi icra məmurlarına əsasən pul tələbləri ilə bağlı işlər həvalə olunacaq. Xüsusi icra məmurlarının fəaliyyətinə Ədliyyə Nazirliyi, Xüsusi İcra Məmurlarının Palatası və məhkəmələr nəzarət edəcək. Nazirlik planlı və plandankənar yoxlamalar aparacaq, Palata etik davranış qaydalarına və daxili nizamnaməyə riayət olunmasına nəzarət edəcək, məhkəmələr isə müəyyən icra hərəkətlərinə icazə verəcək və şikayətləri araşdıracaq.

Bütün proseslər "Elektron icra" informasiya sistemi üzərindən izlənəcək. Qanun pozuntuları aşkarlandıqda intizam tədbirləri görüləcək, kobud pozuntular zamanı şəhadətnamə ləğv ediləcək. Yeni institutun tətbiqi ilə aşağıdakı nəticələrin əldə edilməsi gözlənilir:

İcra proseslərinin sürətlənməsi;

Dövlət icra orqanlarının iş yükünün azalması;

Vətəndaş məmnunluğunun artması;

Hüquq sahəsində yeni peşə mühitinin formalaşması;

Dövlət aparatının optimallaşdırılması və xərclərə qənaət.

Hazırlıq mərhələsi, yeni şəhadətləndirmə, təlim, hüquqi aktların qəbulu və institusional işlər başa çatdıqdan sonra xüsusi icra məmurları 2026-cı ildən fəaliyyətə başlayacaq.

# Təhsil ekspertindən imtahanlarla bağlı etiraz



İlqar Oruclu

**Azərbaycanda qəbul imtahanlarının nəticələri hər il cəmiyyətin diqqət mərkəzində olur. İmtahanda maksimal bal toplayanların sayı, abituriyentlərin göstəriciləri və ümumi nəticələr tez-tez müzakirələrə səbəb olur. Son illərin təcrübəsi göstərir ki, yüksək nəticələrin çoxluğu birbaşa imtahan suallarının xarakterindən asılıdır.**

Təhsil eksperti İlqar Oruclu qəbul imtahanları ilə bağlı Musavat.com-a fikirlərini bildirərkən deyib ki, imtahan nəticələri birbaşa təqdim olunan sualların xarakteri ilə bağlıdır:

"İmtahan sualları elə tərtib oluna bilər ki, maksimal bal toplayanların sayı kifayət qədər çox olsun. Mən demək istəmirəm ki, suallar kiməsə kömək məqsədilə hazırlanıb, amma qəbul imtahanı həm də psixoloji bir sınaqdır. Ona görə də sualların təbii olması nəticələrə birbaşa təsir göstərir".

Ekspertin sözlərinə görə, yüksək nəticə göstərənlərin çoxluğu müəyyən mənada sualların tərtibatından qaynaqlanır:

"700, 600 və ya 500-dən yuxarı bal toplayan abituriyentlərin sayına baxanda görünür ki, bu nəticələr sualların xarakteri ilə bağlıdır. Mən hesab edirəm ki, sualların tərtibatı zamanı müəyyən qədər yumşaq və asan yanaşma tətbiq olunmalıdır. Şagirdlər əvvəlcə buraxılış imtahanı verirlər, sonra qəbul imtahanında iştirak edirlər. Bu, həm psixoloji gərginlik, həm də yorğunluq yaradır. Qəbul imtahanlarının sualları hazırlanarkən bu faktorlar nəzərə alınmalı, daha balanslı və real səviyyəyə uyğun testlər tərtib olunmalıdır".

Ekspert vurğulayıb ki, beynəlxalq təcrübədə də universitetlərə qəbul prosesində fənlər üzrə biliklərin yoxlanılması fərqli üsullarla aparılır:

"Fərqli ölkələrdə qəbul imtahanları bizdəki qədər ağır və uzunmüddətli deyil. Bizdə isə həm buraxılış, həm qəbul mərhələsi abituriyentlərə əlavə stress yaradır. Ona görə də sualların tərtibatında yumşaq yanaşma tətbiq olunması vacibdir".

❑ Sultan MƏMMƏDLİ,
"Yeni Müsavat"



## Yalan məlumat verən qazi cəzalandırıldı

**Borca pul verdiyi hərbçi yoldaşından pulu ala bilməyən şəxs prokurorluğa yalan məlumat verib. Buna görə özü məsuliyyətə cəlb edilib.**

Musavat.com xəbər verir ki, 1990-cı il təvəllüdü Alyoşa Mərdəliyev Şəmkir Rayon Hərbi Prokurorluğuna bilə-bilə yalan məlumat verdiyi üçün cinayət məsuliyyətinə cəlb edilib. Uzun müddət hərbidə xidmətdə olmuş Mərdəliyev İkinci Qarabağ müharibəsində də iştirak edib. Bir müddət əvvəl də hərbidən tərxis olunub.

Alyoşa hərbçi yoldaşı Qabilə kömək məqsədi ilə ona 4 min manat pul verib. Qabilin övladı xəstə olduğu üçün təcili əməliyyat olunmalı imiş. Alyoşa pulu olmadığı üçün bankdan kredit götürərək Qabilə verib. Qabil aylıq 150 manat krediti ödəməli imiş. İlk ayları ödəsə də sonrakı ayların ödənişini gecikdirdiyi üçün tərəflər arasında narazılıq yaranıb. Qabilin ümumi borcdan 1650 manat borcu qalıb. Alyoşa dəfələrlə ödənişi etməsini tələb etsə də Qalib maddi imkanı zəif olduğu üçün ödəyə bilmədiyini, qısa zamanda həll edəcəyini deyib.

Uzun müddət keşsə də pulunu ala bilməyən Alyoşa qisas almaq üçün hərbçi dostu Qalib barəsində Şəmkir Rayon Hərbi Prokurorluğuna şikayət yazıb. Həmin şikayətində yazıb ki, Qalib ondan 3 min manat alıb, xidməti yerini dəyişdirəcəyini vəd verərək aldadıb. Qalibi dələduzluqda ittiham edən Alyoşanın şikayəti araşdırılan zaman onun yalan məlumat verdiyi üzə çıxıb. Alyoşa sonradan özü də əməlindən peşman olduğunu deyib. Amma artıq gec olub. Alyoşa özü məsuliyyətə cəlb olunub.

Alyoşa bilə-bilə yalan xəbərçilik edərək Şəmkir Rayon Hərbi Prokurorluğunun normal iş fəaliyyətini pozduğu üçün cinayət məsuliyyətinə cəlb edilib. Məhkəmənin hökmü ilə Alyoşa 2 min manat cərimə edlib.

❑ Musavat.com



Mehriban Zeynalova

## Uşaqları faciəyə aparan oyunlar - hüquq müdafiəçisindən çağırış

**Goranboyda 9-cu sinif şagirdinə qarşı törədilən cinsi zorakılıq hadisəsi cəmiyyətdə ciddi rezonans doğurub. İstintaq materiallarına görə, qız internetdə tanış olduğu şəxs tərəfindən aldadılaraq əvvəlcə inam qazanılıb, daha sonra isə istismara məruz qalıb.**

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova bu barədə Musavat.com-a açıqlamasında bildirib ki, buna səbəb son illər virtual oyunların geniş yayılmasıdır:

"Bu hadisə müasir dövrün təhlükəli tendensiyalarından biri olan onlayn cəlbetmə, sevgi asılılığı yaratma və sonradan sui-istifadədir. Proses adətən latent gedir, yəni gizli şəkildə davam edir. Ona görə də hüquqi mexanizmlər çox vaxt gecikmiş şəkildə tətbiq olunur. Valideynlərin əksəriyyəti bəzi oyunları təhlükəsiz hesab edir və uşaqlarının evdə vaxtını bu oyunlarla keçirməsini normal qarşılayır. Lakin çoxu bilmir ki, bəzi oyunların tərkibində cinsi təcavüz və istismar üçün mesajlar gizlənir. Bu mesajlar oyun zamanı iştirakçıların beyninə sanki hopdurulur".

M.Zeynalova bildirib ki, əvvəlcə əyləncəli görünən bu oyunlar sonradan ciddi fəsadlar yarada bilər: "Əksər ailələr belə oyunlardan xəbərsizdir və bu barədə məlumat toplamaq üçün heç bir araşdırma aparmır. Valideynin məlumatsız olması onun ittihamını aradan qaldırmır. Xüsusilə də elə yaş qrupları var ki, müasir onlayn dünyadan tam xəbərsizdir".

QHT sədrinin fikrincə, maarifləndirmə tədbirləri genişləndirilməlidir: "Yaxşı olardı ki, bu mövzuda QHT-lər və müvafiq qurumlar əhalini davamlı məlumatlandırsın. Daxili İşlər Nazirliyinin dələduzlarla bağlı apardığı maarifləndirici məlumatlar insanlara böyük dəstək olur. Məncə, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi də bu oyunları araşdıraraq genişmiqyaslı məlumatlandırma kampaniyalarına güc verməlidir".

❑ Sultan MƏMMƏDLİ,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025

## Həyət evi almaq istəyənlərə xəbərdarlıq - Təhlükə var



**“Vətəndaşlar fərdi yaşayış evi alarkən mütləq şəkildə həmin evlərin qonşu evlərlə ara məsafəsinin qorunmasına, evlərin dam örtüyünün ayrı olmasına diqqət etməli, mənzillərarası ara məsafənin olub-olmamasına önəm verməlidir. Bu hal vətəndaşın öz mənzilinin qorunması üçün vacibdir”.**

Bu sözləri Tribunainfo.az-a açıqlamasında əmlak eksperti Elnur Fərzəliyev bildirib. O qeyd edib ki, bu gün mənzil bazarında qiymətlər artdığı üçün vətəndaşlar ucuz qiymətə təklif edilən fərdi yaşayış evlərinə üz tuturlar. Bu evlər də satılmaq məqsədilə tikildiyi tikinti normaları nəzərə alınmır və yanğın zamanı da bu cür evlər təhlükə altına düşür:

“Hər hansısa yaşayış evinin tikilməsi üçün tələb olunan torpaq sahəsinin 40 faizi tikinti sahəsi, 60 faizi isə həyətyani sahəsi olmalıdır. Həmçinin qonşu evlərlə ara məsafəsi mütləq şəkildə qorunmalıdır. Lazkin hazırda xüsusilə Bakı və Abşeron ərazisində tikilmiş çox sayda yaşayış evləri var ki, onlar tikinti normativləri qorunmadan inşa olunub.

Xüsusilə satış məqsədilə tikilən evlərdə bu cür normalar çox vaxt qorunmur. Qonşu evə bitişik və ya çox yaxın evlər tikilir ki, bu da çox təhlükəli haldır. Sənədlərşə probleminin yaranması problemlərdən sadəcə biridir. Ancaq gözlənilməyən bədbəxt hadisələr, yanğın, zəlzələ ola bilir ki, bitişik evlərdə bu cür hadisələrrdən sonra zərərin miqyası böyük olur.

Bitişik, yaxın tikilən evlərin birində yanğın baş verəndə digər yaxın və ya bitişik evləri də çox vaxt qorumaq mümkün olmur. Ona görə də, fikir vermisinizsə, Bakı və Abşeronda xüsusilə ətraf ərazilərdə tikilən bir mənzildə baş verən yanğınn qarşısını almaq çətinləşir və yanğın digər evlərə də keçir. Nəticədə bir deyil, bir neçə mənzilə zərər dəyir.

Vətəndaşlar fərdi yaşayış evi alarkən mütləq şəkildə həmin evlərin qonşu evlərlə ara məsafəsinin qorunmasına diqqət etməli, evlərin dam örtüyünün ayrı olmasına baxmalı, mənzillərarası ara məsafənin olub-olmamasına önəm verməlidir. Bu hal vətəndaşın öz mənzilinin qorunması, özünün təhlükəsizliyi üçün vacibdir”.

# Sənədsiz evlərlə bağlı yeni gəlişmə - Amnistiya yaxınlaşır



**Azərbaycanda illərdir müzakirə olunan sənədsiz evlərin rəsmiləşdirilməsi məsələsində mühüm irəliləyiş gözlənilir. Milli Məclisin deputatı Vüqar Bayramovun verdiyi məlumata görə, hökumət bu istiqamətdə konsepsiya üzərində işləri tamamlayır və amnistiya qərarı artıq gündəmdədir. Deputat 1news.az-a bildirib ki, amnistiya 2 mərhələdə həyata keçiriləcək və nəticədə təxminən 100 min qeydiyyatsız ev sənədləşdiriləcək:**

“Bu, yüz minlərlə ailəyə evlərini rəsmi şəkildə dövlət qeydiyyatına almaq imkanı verəcək”, - deyə Bayramov vurğulayıb. Lakin prosesin uzanmasının səbəbləri də var. Qeydiyyata düşəcək evlərin bir hissəsi təhlükəli zonalarda yerləşir - neft boru kəmərlərinin, iri dəmir yolu xətlərinin və yüksək gərginlikli elektrik xətlərinin yaxınlığında inşa edilən evlərin sənədləşdirilməsi xüsusi yanaşma tələb edir. Bəzi hallarda elektrik xətləri yeraltı kabel ilə əvəz edilə bilər. Ancaq neft kəmərlərinə yaxın tikililər üzrə daha sərt təhlükəsizlik tədbirləri görülməlidir.

Deputat hesab edir ki, hökumət daxilində aparılan müzakirələr və əldə olunan razılıqlar yaxın vaxtlarda sənədsiz evlərin rəsmiləşdirilməsi prosesinin başlanacağına işarədir.

Ötən ay isə digər deputat, Milli Məclisin Regional məsələlər komitəsinin üzvü Arzuxan Əlizadə sənədsiz evlər məsələsini qaldırmışdı. Deməşdi ki, Azərbaycanda sənədsiz evlərin sayı 500 mindən çoxdur. Deputat qeyd etmişdi ki, regionlarda bu say daha da çoxdur:

“Sənədsiz evlərin sığortalanması da mümkün olmur. Misal olaraq, payız-qış mövsümündə güclü yağışlar səbəbindən Sabunçuda çox sayda evlər subasmaya məruz qaldı. Yaşayış sahələrinə ciddi ziyan dəydi. Həmin ərazidə 30-dan artıq zərərçəkənlə görüşdük, amma heç bir dəstək göstərə bilmədik. Çünki evlərinin sənədləri yox idi”.

Deputat əlavə etmişdi ki, həmin ərazilərdə olan evlərə eyni zamanda neftli suların dolması vəziyyəti daha da acınacaqlı edib: “Həmin evlərin böyük əksəriyyəti Balaxanı neft buruqlarından çıxan qurunt sularının axdığı kanalların üzərində tikilib. Həmin kanalların təmizlənməsinə ehtiyac var. Sənədsiz evlərin problemi öz həllini tapmalıdır”.

Azərbaycan vətəndaşlarının illərdir üzləşdiyi əsas sosial-iqtisadi paradokslardan biri “kupça”sız evlər problemidir. Hazırda ölkədə yarım milyon Azərbaycan vətəndaşı evinə, torpağına “kupça” alacağı günü gözləyir. Bu absurd vəziyyət hələ də milyonlarla insanın hüquqi sabitliyini sual altına qoyur.

Rəsmi hesablamalara görə, hazırda ölkədə 1.2 milyondan çox yaşayış və qeyri-yaşayış sahəsi “kupça”sızdır. Bu, daşınmaz əmlakların 30 faizindən çoxudur. Əmlak vergisi “kupça”ya əsasən hesablandığı üçün bu o deməkdir ki, dövlət hər il 100 milyonlarla manat vergi gəlirindən məhrum olur. Azərbaycan Dövlət İqtisad Universitetinin ekspertlərinin hesablamasına görə, əgər bütün daşınmaz əmlak “kupça”lanarsa, dövlət illik minimum 250 milyon manat əlavə gəlir əldə edə bilər. Bu, təxminən 5 rayonda infrastruktur layihələrini maliyyələşdirmək üçün kifayət edər. “Kupça” problemi təkcə sənəd deyil, həm də hüquq və təhlükəsizlik məsələsidir. “Kupça”sız ev hüquqsuz və zəmanətsiz evdir. Heç bir bank “kupça”sız evə kredit vermir. Heç bir məhkəmə “kupça”sız evə hüquqi toxunulmazlıq tanımır. Və heç bir sığorta şirkəti belə evləri etibarlı sayıb sığortalamır. Hələ bu azmış kimi, yerli icra hakimiyyətlərinin, bələdiyyələrin və tikinti mafiyasının maraqları üst-üstə düşəndə “kupça”sız evin sökülməsi an məsələsi olur. Əmlak Məsələləri Dövlət Xidmətinin əsas funksiyası daşınmaz əmlakın qeydiyyatı, “kupça”ların verilməsi, torpaq islahatları və əmlak idarəçiliyidir. İllərdir “elektron xidmət”, “sadələşdirilmiş prosedur” adı altında yüzlərlə kampaniya keçirilsə də, milyonlarla vətəndaşın “kupça” problemi həllini tapmayıb. Əmlak Məsələləri Dövlət Xidməti 2020-ci ildən İqtisadiyyat Nazirliyinin tabeliyindədir. Xidmət İqtisadiyyat Nazirliyinin tabeliyinə veriləndən sonra gözləntilər vardı ki, ortaya sistemli yanaşma qoyulacaq. Çox təəssüf ki, hələ də bu gözləntilər doğrulmayıb. Əhalinin çoxu torpaq alqı-satqısını bələdiyyə aktı ilə həyata keçirir. Amma bu sənəd yalnız bələdiyyə səviyyəsində keçərlidir. Dövlət qeydiyyatı olmadığı üçün “kupça” verilmir. Bəzi hallarda bələdiyyə torpağı adlandırılan sahələr 10-15 il öncə özbaşına satılıb, bu gün bu ərazilərin sənədləşdirilməsi də bu səbəblə aparılmır. “Kupça” məsələsi təkcə bir sənədin yoxluğu deyil. Bu, vətəndaşın dövlətə inamının yoxluğu, hüquqlarının pozulması və iqtisadi ədalətsizliyin göstəricisidir. Prezidentin sərəncamları, nəhayət ki, tətbiq olunmalı, xalqın “kupça” haqqı gerçəkləşməlidir. Əgər dövlət orqanları bir evin hüquqi statusunu 20 ilə həll edə bilmirsə, hansı inkişafdan danışmaq olar? Əmlak varsa, əmlaka dair sənədi də dövlət vətəndaşa təqdim etməlidir. Vətəndaş varsa, hüququ da tanınmalıdır.

❑ **Elşən MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

## Rusiyada adam öldürdü, 10 il Azərbaycanda gizləndi



**Rusiyada adam öldürdükdən sonra gizli yolla Ukraynaya qaçan, bir müddət də orada yaşadıqdan sonra Azərbaycana qayıdan şəxsin cinayətinin üstü 10 il sonra açılıb.**

Musavat.com xəbər verir ki, 35 yaşlı Yaşar Həsənov 24 yaşında işləmək üçün Rusiyanın Tula vilayətində yaşayan həmyerlilərinin yanına gedib.

Orada olarkən dostları vasitəsi ilə Vicay Cəbrayıllı adlı şəxslə tanış olub. Yaşar dostları ilə söhbətində Vicay adlı şəxsdən xoşunun gəlmədiyini, problemli adam olduğunu deyib. Lakin ortaq dostlarına görə Vicayla məclislərdə tez-tez görşüblər. Vicay orada taksi sürücüsü kimi çalışırmış.

Vicayla Yaşar arasındakı mübahisə üçüncü azrəbaycanlı - Abdula görə baş verir. Belə ki, Vicay Yaşara deyib ki, Abdul onun arxasınca xoşagəlməz sözlər danışır. Yaşar Abdulla məsələni aydınlaşdıran zaman Vicayın yalan danışdığını öyrənir. Buna görə də aralarında mübahisə yaranır. Əvvəlcə Vicay Yaşarı döyür. Növbəti görüş zamanı Yaşar qisas məqsədi ilə Vicayı bıçaqlayaraq qətlə yetirir.

Hadisədən sonra qaçaq yolla Ukraynaya gedən Yaşar orada sosial şəbəkədə tanış olduğu xanımla yaşayır. Yaşar 2014-cü ildə Azərbaycana gəlmək qərarı verir. Maraqlıdır ki, bu müddət ərzində onun barəsində həbs qərarı olmur. 2021-ci ilə qədər problemlə üzləşməyən Yaşar Azərbaycanda narkotik istifadəçisi kimi tutulur. 4 il cəza alan Yaşar həbsxanada olan zaman onun barəsində beynəlxalq atarış elan edildiyi məlum olur. Rusiya hüquq-mühafizə orqanları onun barəsində olan cinayət işini Azərbaycan hüquq-mühafizə orqanlarına təqdim edir. Yaşar törətdiyi qətlə görə 2025-ci ildə Azərbaycanda hakim önünə çıxarılıb.

Şəki Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Yaşar 9 il 6 ay azadlıqdan məhrum edilib. Yaşar əməlindən peşman olduğunu desə də mərhumun atası onu bağışlamayıb. Hüquqi varis kimi tanınan ata Yaşara daha ağır cəza verilməsini istəyib.

❑ **Musavat.com**

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# "Qız uşaqları daha çox selektiv abortlara məruz qalır"

## Üzeyir Şəfiyev: "Azərbaycan bu məsələdə hətta Çini də üstələyir"

**Azərbaycanda əhali strukturu və cins nisbətindəki dəyişikliklər son illərdə demoqrafik mənzərədə diqqət çəkən tendensiyaları ortaya qoyur. Dövlət Statistika Komitəsinin 2025-ci ilin yanvar-may aylarına dair hesabatına görə, bu il doğulan uşaqların 53,2 faizi oğlan, 46,8 faizi isə qızdır. Əhalinin ümumi cins nisbətinə baxdıqda isə iyunun 1-nə ölkədə kişilərin payı 49,8 faiz, qadınların payı isə 50,2 faiz təşkil edir.**



Bu göstəricilərdən görünür ki, 2025-ci ildə doğulan uşaqların 53,2 faizinin oğlan olması təbii cins nisbətindən bir qədər yüksəkdir (təbiətdə hər 105 oğlana 100 qız düşür). Bununla belə, ümumilikdə qadınların sayı kişilərdən çox olduğundan əhali balansı hələ tam pozulmayıb. Lakin uzunmüddətli perspektivdə cins nisbətindəki bu dəyişikliklər müəyyən risklər daşıyır.

1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra əhali strukturu diqqətlə izlənməyə başlanıldı. Həmin ildə hər 1000 kişiyə 1048,3 qadın düşürdü. Sonrakı illərdə qadınların sayı tədricən azalmağa başladı. Statistik göstəricilər bunu aydın şəkildə göstərir: 1992-ci ildə 1046,3, 1993-də 1043,3, 1994-də 1039,1, 1995-də isə 1035,8 qadın hər 1000 kişiyə düşüb. 1999-cu ildə hər 1000 kişiyə 1048,2 qadın düşməsi əvvəlki illərin səviyyəsinə qayıdış kimi qəbul edilsə də, 2009-cu ildə bu göstərici 1021,2-yə qədər azaldı və bu tarixdən sonra qadınların nisbəti hələ də əvvəlki səviyyələrə çatmayıb.

Beləliklə, statistik tendensiyadan görünür ki, ölkədə ümumilikdə qadınlar kişilərdən çox olsa da, bu fərq illər keçdikcə azalır. 1991-ci ildən 2025-ci ilə qədərki məlumatları təhlil etdikdə, qadınların sayının azalma meyli, xüsusilə reproduktiv yaşda qadınların sayının tədricən azalması, gələcəkdə doğum göstəricilərinə və əhali artımına təsir edə bilər.

Sosioloqlar qeyd edir ki, qadın-kisi nisbətinin tarazlığı pozulduqda yalnız statistik problem yaranmır. Bu, həm də sosial və iqtisadi proseslərə təsir edir. Məsələn, qadınların sayı azalarsa, bəzi bölgələrdə kişi əhalisinin çoxluğu evlilik yaşının artmasına səbəb ola bilər, bu isə demoqrafik dinamikanı ləngidir. Bildirilir ki, xüsusilə kənd və kiçik şəhərlərdə qadınların azalması yerli əhalinin artımını yavaşıdır və gələcəkdə demoqrafik boşluqlara gətirib çıxara bilər.

Reproduktiv yaşda qadınların sayının azalması isə doğum səviyyəsini aşağı sala bilər ki, bu da əhali artımını məhdudlaşdırır. Bunlar yalnız demoqrafik problemlər deyil, eyni zamanda sosial-iqtisadi və mədəni məsələlərə də təsir göstərir. Əgər bu balans pozularsa, ailə qurmaq, uşaqlı olmaq və icmal həyat ritmi kimi sosial proseslərdə ciddi çətinliklər yarana bilər.

Mövzu ilə bağlı sosioloq Üzeyir Şəfiyev "Yeni Müsavat"a danışıb. Sosioloq qeyd edir ki, selektiv abort və digər problemlərə baxmayaraq, ölkədə qadın kişi nisbəti, əhali tarazlığı qorunur:

"Əslində, Azərbaycanda qız uşaqları doğularkən oğlan uşaqlarına nisbətən daha çox selektiv abortlara məruz qalır. Bu, tarixi olaraq kişi mərkəzli cəmiyyətimizin nəticəsidir. Belə cəmiyyətlərdə oğlan uşaqlarına üstünlük verilməsi tendensiyası olub. Lakin indi cəmiyyətin sosial strukturu dəyişməkdədir və orta perspektivdə bu problem əhəmiyyətini itirəcək.

Hazırkı statistikaya baxsaq, Azərbaycanda selektiv abortların sayı hətta əhalisi çox olan Çini də üstələyir. Orta normativ hesablamalara görə 100 qız uşağına 102-106 oğlan uşağı düşürsə, bəzən bu rəqəm 115-ə çatır. Bu göstərici selektiv abortların mövcudluğunu açıq şəkildə göstərir.

Doğularkən oğlan uşaqları qız uşaqlarına nisbətən daha çox olur, lakin qız uşaqlarının immuniteti daha güclü olduğu üçün sonradan onların həyatda qalma ehtimalı daha yüksəkdir. Digər tərəfdən, yol qəzaları, müharibələr və müxtəlif hadisələr nəticəsində oğlan uşaqlarının tələf olması daha çox olduğundan, əhali içində 30 yaşa qədər oğlanlar üstünlük təşkil etsələr də, 30 yaşdan sonra qadınlar sayca üstün gəlir.

Statistikaya baxdıqda, ahıl insanlar arasında qadınların sayı kişilərdən daha çoxdur. Məsələn, vəfat edən kişilərin 48 faizi pensiya yaşına çatmadan dünyasını dəyişir. Yaxınlarda açıqlanan statistika göstərir ki, 100 yaşdan yuxarı olan pensiyaçılar arasında yalnız 28 nəfər kişi, qalanı qadındır. Ümumilikdə 276 nəfərdən yalnız 38 nəfəri kişi idi. Bu baxımdan 30 yaşdan sonra qadınlar əhali içində daha çoxdur.

Beləliklə, indiki vəziyyətdə Azərbaycanda qadın-kişi nisbəti ilə bağlı ciddi problem yoxdur. Hər nə qədər selektiv abortlar olsa da, 20-30 yaşdan sonra əhali nisbətində təxminən tarazlıq yaranır. Daha böyük fərq isə ahıl yaş qrupunda qadınların üstünlüyü ilə müşahidə olunur".

**Azərbaycan Respublikasının Medİanın İnkişafı Agentlİyİnİn malİyyəsİ əsasında nəşr olunur. Yazını hazırladı: Xalİdə GƏRAY**

# SOS: Avtobus sürən narkomanlar - xəbərdarlıq

## Niyə bu cür hallarda məsuliyyət Cinayət Məcəlləsinə keçmir? - qanunda boşluqlar, yoxsa...

**Masallıda baş verən hadisə yenidən ictimaiyyətin diqqətini yol təhlükəsizliyi və qanunvericilikdəki boşluqlara yönəldib. Daxili İşlər Nazirliyinin məlumatına görə, Masallı rayon sakini Qadir Kərimov sürücülük hüququ olmadan idarə etdiyi "Mercedes" markalı mikroavtobusla sərnişindaşıma fəaliyyəti göstərərkən saxlanılıb. Polis əməkdaşlarının diqqətini şübhəli davranışlara görə çəkən sürücü tibbi müayinədən keçirilib və narkotik vasitə qəbul etdiyi müəyyən olunub. Məhkəmə qərarı ilə Qadir Kərimov cəmi 1 ay müddətinə inzibati qaydada həbs edilib.**



Bu qərar suallar doğurur:

Onlarla insanın həyatını təhlükəyə atan şəxs üçün 1 aylıq həbs yetərlidirmi? Niyə bu cür hallarda məsuliyyət Cinayət Məcəlləsinə keçmir? Qanundakı boşluqlar belə faciələr üçün yaşıl işıq yandırmırmı?

Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı "Yeni Müsavat"a deyib ki, burada söhbət sadəcə yol hərəkəti qaydalarının pozulmasından getmir: "Narkotik təsiri altında olan bir avtobus sürücüsü, üzərində hüquqi icazəsi olmadan, faktiki olaraq hər an böyük bir qətliam törədə bilər. Bu, təkcə sərnişinlərin deyil, digər yol istifadəçilərinin də həyatını riskə atır. Qanunvericilikdə belə hallar əsasən inzibati xətalar sırasında qiymətləndirilir. Yalnız faciəvi nəticə baş verdikdə cinayət məsuliyyəti tətbiq olunur. Yəni təhlükəli niyyət yox, başa gəlmiş faciə əsas götürülür. Digər tərəfdən Narkomaniyanı və dəliliyi müəyyən edən həkimlərdir. Yəni bu xəstəlikləri yol polisi, yaxud da nəqliyyat müfəttişi, digər strukturun əməkdaşları üzə çıxarmır. Həkimlər 80-100 manata sağlamlıq arayışı verirsə, buna polis nə etsin? Bu gün poliklinikaların bir çoxunda açıq şəkildə bazarda olduğu kimi alver gedir. Sağlamlıq haqqında arayışları 80-100 manat müqabilində satırlar. Təbii ki, ora gedən sürücü şikayətinin olduğunu demir. Həkim də yazır ki, heç bir şikayəti yoxdur. 80 manatı alır, 40 manat dövlət rüsumunu ödəyir, qalanını da özünə saxlayır. Qanunvericilikdə boşluqlar var. Taksi şirkətləri sürücüdən arayış tələb edir ki, həkimdən arayış alsınlar. Onlar da gedib pulla alıb gətirirlər. Buna taksi şirkəti nə etməlidir? Arayışı verən strukturdan soruşmaq lazımdır ki, bunu niyə verirsiniz? Tibbi müayinə və tibbi sağlamlıq arayışı fərqli anlayışlardır. Sürücülərin tibbi müayinəsi gündəlik həyata keçirilməli olan prosedurdur. Amma sağlamlıq haqqında arayış ilkin sənəddir. Sürücü olmağa hazırlaşan şəxs sağlamlıq haqqında arayış almalıdır. Orda hansısa bir mənəviyyatsız, yaramaz bir həkim, poliklinika saxta arayış verir, bu cür hadisələrin yaranmasına zəmin yaradır. Ölkə rəhbərindən tutmuş baş nazirə qədər, deputatlar, nazirliklər əziyyət çəkərək bu boyda məsələni qaldırdılar. Bu işin qarşısında bir həkim ölkəyə nə qədər ziyan vurur. Qurumlar buna nə etsin?"

"Bakı" Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov deyir ki, içkili, narkotikin təsiri altında sükan arxasına keçən sürücünün əlində avtobus hərəkətdə olan potensial kütləvi qətl alətidir: "Nazirlər Kabinetinin qərarına əsasən, sürücü olan hər şəxs işə düzələrkən və sonra dövri olaraq tibbi yoxlanışdan keçməlidir. Amma qanunun yazıldığı kimi icra edilməməsi problemlər yaradır. Azərbaycanda qəbul edilən qanunlar dünyada olanlardan heç də geri qalmır. Çünki hüquqda belə bir qayda var, qanun hərfi mənada tətbiq edildikdən sonra onun təcrübədə hansısa boşluğunun olduğu ortaya çıxır. Qanun tətbiq edilməyəndə boşluğun olub-olmadığını müəyyənləşdirmək çətin olur. Qanunda qeyd edilib ki, taksi fəaliyyəti ilə məşğul olmaq istəyən şəxs yeni qaydalara əsasən buraxılış kartı əldə etməlidir. Bunun üçün həmin şəxsin sağlamlığı əhatəli olaraq yoxlanılmalıdır. Psixi-nevroloji yoxlanışdan keçdikdən sonra onun taksi fəaliyyətində çalışıb-çalışmaması müəyyənləşir. Sözsüz ki, bu qaydalar işləsə, müntəzəm tibbi yoxlamalar aparılsa, nəzarət olunsa, bu kimi hallar baş verməz. Eyni zamanda bu hal fəaliyyət prosesində də aşkarlana bilər. Hər hansı şəxsin müəyyən tarixdə sağlamlıq haqqında arayış alması onun tam və daim sağlam olması demək deyil. Elə xəstəliklər və psixi durum var ki, onları aşkara çıxarmaq uzunmüddətli müşahidə tələb edir. Kobud qayda pozuntuları, davranışları şəxsin normal olmadığına dəlalət etsə, onun təkrar yoxlanışa cəlb edilməsi ilə bağlı da mexanizm olmalıdır. Narkoman, spirtli içki həvəskarı olan sürücülər cəzalandırılmaqla yanaşı gələcəkdə ictimai nəqliyyatın sükanı arxasına buraxılmamalıdır".

Cinayət Məcəlləsinə xüsusi maddə əlavə olunmalı, narkotik və ya spirtli içki təsiri altında ictimai nəqliyyat idarə edənlərə azı 2 il həbs cəzası nəzərdə tutulmalıdır. Sürücülük hüququ olmayan şəxsin avtobus idarə etməsi ayrıca cinayət tərkibi kimi tanınmalı, nəqliyyat şirkətləri belə şəxsləri işə götürdüyünə görə lisenziya itirməlidirlər. Sürücülər ildə azı 2 dəfə məcburi narkotik və alkoqol testindən keçməlidirlər. Avtobusa minməklə həyatını sürücüyə əmanət edən insanları təhlükəyə atan şəxsin 1 aylıq inzibati həbsə alınması əmələ adekvat qərar deyil".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 144 (8754) 16 avqust 2025

# Kriptovalyuta Azərbaycanda risklər yaradır

**Mərkəzi Bank xüsusi tənzimləmə rejiminin ilk mərhələsi üzrə sınaq dövrlərinin başa çatdığını bəyan edib. Sınaq müddətində 4 innovativ məhsulun qiymətləndirilməsi həyata keçirilib. 2 istiqamət üzrə qiymətləndirmə nəticələri uğurlu hesab olunub, digərləri üzrə məqsədəuyğun hesab edilməyib. Dəstəklənən layihələr məhz kriptovalyuta əməliyyatları ilə bağlıdır".**




Bu sözləri Milli Məclisin deputatı Vüqar Bayramov bildirib. Deputatın sözlərinə görə, kriptovalyuta əməliyyatlarını daha təhlükəsiz və şəffaf şəkildə icra etmək üçün "m10" tətbiqinin "Binance" platformasına inteqrasiyası nəzərdə tutulur:

"İstifadəçilər bu inteqrasiya vasitəsilə "Binance" cüzdanlarına mədaxil və məxaric edə bilərlər. Digər layihə "kriptobroker platforması" virtual aktivlərinin asan və təhlükəsiz şəkildə alışı, satışı və saxlanılması imkanlarını yaradır. Xüsusi tənzimləmə rejimi çərçivəsində sınaqların keçirilməsində məqsəd həmçinin, bu istiqamətdə normativ-hüquqi bazanı formalaşdırmaq və təkmilləşdirməkdir.

Mərkəzi Bank hələ 2019-cu ildən blokçeyn əsaslı Rəqəmsal İdentifikasiya Sisteminin yaradılması layihəsinin icrasına başlayıb. Blokçeyn texnologiyasının tam tətbiqi imkanlarının araşdırılması virtual pul bazarının inkişafı baxımdan vacibdir. Mərkəzi Bankın test layihələri daha yaxın gələcəkdə Azərbaycanda kriptovalyutaların buraxılması və istifadəsinə imkan yarada bilər. Qlobal maliyyə əməliyyatları intensiv şəkildə virtuallaşdığı üçün Azərbaycanda da kriptovalyutalardan istifadə və sistem inteqrasiyası əsas çağırışlardan biridir".

İqtisadçı-ekspert Natiq Cəfərli isə Sherg.az-a açıqlamasında kriptovalyutalar sahəsindəki vəziyyəti təhlil edərək, onların həm imkanlarını, həm də risklərini vurğulayıb. O bildirib ki, hazırda kriptovalyutalarla bağlı ölkəmizdə qanunvericilik bazası kifayət qədər zəifdir. Bu, bir tərəfdən, sahəyə marağı artırsa da, digər tərəfdən, investorlar və istifadəçilər üçün risklər yaradır.

N.Cəfərli qeyd edib ki, əgər dövlət kriptovalyutalar üzərində aşırı tənzimləmə və ciddi nəzarət tətbiq etməyə başlasa, bu sahəyə maraq xeyli azalacaq. Kriptovalyutaların əsas üstünlüyü onların anonimliyidir. Əgər anonimliyi aradan qaldırıb bu sahəni nəzarət altına almaq istəsələr, kriptovalyutaların əsas dəyəri itir və onlar artıq cəlbedici investisiya və ya ödəniş vasitəsi olmayacaq.

Dünyada kriptovalyutaların geniş yayılmış investisiya aləti olduğunu vurğulayan ekspert deyib ki, gələcəkdə bu sahənin Azərbaycanda da inkişaf etməsi ehtimalı yüksəkdir. İnkişaf etmiş ölkələrdə kriptovalyutalar artıq milyonlarla insan tərəfindən alqı-satqı və investisiya məqsədilə istifadə olunur: "Lakin bir iqtisadçı olaraq, şəxsi baxışım odur ki, kriptovalyutalar perspektivi olmayan, spekulyativ bir sahədir. Burada qiymətlərin qalxıb-azalması spekulyativ faktorlarla sıx bağlıdır və həddindən artıq qeyri-sabitdir. ABŞ Prezidenti Donald Tramp və onun komandası kriptovalyutalara müsbət yanaşır deyə bu münasibət dünya bazarında qiymətlərin yüksəlməsinə təsir edir. Bu səbəbdən də ABŞ və digər iri bazarların siyasətindəki dəyişikliklər kriptovalyuta qiymətlərində kəskin dalğalanmalara səbəb ola bilir. Sabah ABŞ-nin kriptovalyutaya münasibəti dəyişsə, qlobal qiymətlər sürətlə düşə bilər".

Kriptovalyutaların məqsədi və məğzini anlamaqda çətinlik çəkdiyini vurğulayan N.Cəfərli deyib ki, alış-veriş etmək üçün elektron pullar, kartlar, hesablardan istifadə edilir. Kriptovalyutalar nəyə lazımdır? Bu suala heç kimin konkret cavabı yoxdur. Qeyd etdiyim kimi, kriptovalyutaları cəlbedici edən onun anonimliyidir. Anonim olması səbəbindən bu valyuta vasitəsilə kriminal fəaliyyətlərin həyata keçirilməsi daha da asanlaşır. Kriptovalyutalara olan marağın artması eyni zamanda onların vergidən yayınma və digər qanunsuz əməliyyatlarda istifadə edilməsinə şərait yaradır".

# Qarabağda hara və nə qədər xərclənib? - Statistika

**2025-ci ilin ilk yarısında Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən tikinti-quraşdırma işlərinin dinamikası rayonlar arasında kəskin fərqlənib, bəzi ərazilərdə nəhəng artımlar, bəzilərində isə azalma müşahidə olunub.**



Fed.az bu barədə Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərə istinadən xəbər verir.

Ümumi dəyərə görə, Şərqi Zəngəzur iqtisadi rayonunda daha çox iş görülüb. Hesabat dövründə burada 1 milyard 203 milyon 304,5 min manatlıq tikinti-quraşdırma işləri aparılıb ki, bu da ötən ilin eyni dövrü (1 milyard 222 milyon 817,2 min manat) ilə müqayisədə 19 milyon 512,7 min manat azalma (-1.6%) deməkdir. Qarabağ iqtisadi rayonunda isə bu göstərici 835 milyon 145,3 min manat təşkil edib və ötən illə (905 milyon 716,2 min manat) müqayisədə 70 milyon 570,9 min manat azalıb (-7.8%).

Qarabağ iqtisadi rayonu daxilində rayonlar üzrə göstəricilər aşağıdakı kimi olub.

Xankəndi şəhərində tikinti işlərinin həcmi 6 milyon 930,0 min manatdan 80 milyon 362,9 min manata yüksələrək, 73 milyon 432,9 min manat artıb (11.6 dəfə çox).

Xocalı rayonunda da işlərin dəyəri 24 milyon 737,9 min manatdan 65 milyon 269,8 min manata çataraq 40 milyon 531,9 min manat artıb (2.6 dəfə çox).

Xocavənd rayonunda 19 milyon 336,9 min manat (+72.7%), Ağdərə rayonunda 5 milyon 861,8 min manat (+66.2%), Bərdə rayonunda isə 9 milyon 817,2 min manat (+65.5%) artım qeydə alınıb. Ağcabədi rayonunda 338,2 min manatlıq artım (+5.9%) baş verib.

Bunun əksinə olaraq, Füzuli rayonunda tikinti-quraşdırma işlərinin həcmi 226 milyon 458,9 min manatdan 91 milyon 050,4 min manata enib. Bu, 135 milyon 408,5 min manat azalma (2.5 dəfə az) deməkdir və məbləğ ifadəsi ilə ən böyük azalmadır.

Tərtər rayonunda işlərin həcmi 24 milyon 829,2 min manat azalaraq (2.4 dəfə az) 17 milyon 802,3 min manat təşkil edib. Ağdam rayonunda 47 milyon 685,8 min manat (-15.5%), Şuşa rayonunda isə 11 milyon 966,3 min manat (-5.0%) azalma müşahidə olunub.

Şərqi Zəngəzurda ümumi həcmdə cüzi azalma olsa da, iki rayon artım nümayiş etdirib.

Ən böyük mütləq artım Laçın rayonunda qeydə alınıb: burada tikinti işləri 242 milyon 400,4 min manatdan 303 milyon 122,1 min manata çatdırılıb. Nəticədə, illik 60 milyon 721,7 min manat (+25.0%) artım baş verib.

Zəngilan rayonu da 44 milyon 401,6 min manat artımla (+21.9%) seçilib və işlərin həcmi 246 milyon 909,3 min manata çatıb.

Bütün rayonlar arasında ən yüksək tikinti-quraşdırma işləri həcmi Kəlbəcər rayonundadır. Burada işlər 30 milyon 451,2 min manat azalsa da (-6.9%), yekun həcm 408 milyon 011 min manat olub.

Qubadlı rayonunda 65 milyon 900,7 min manat (-37.9%), Cəbrayıl rayonunda isə 28 milyon 284,1 min manat (-17.1%) azalma baş verib.

## Ölkədə neçə nəfər pensiyaçı var?



**2025-ci il iyulun 1-i vəziyyətinə Dövlət Sosial Müdafiə Fondunda 1 milyon 103 min 300 nəfər pensiyaçı qeydiyyatda olub. Dövlət Statistika Komitəsi məlumat yayıb.**

Bildirilib ki, bu da ölkə əhalisinin 10.8 faizini təşkil edir. Onların 64.6 faizi yaşa, 23 faizi əlilliyə, 12.4 faizi isə ailə başçısını itirməyə görə pensiya alır.

Təyin olunmuş pensiyaların ortaaylıq məbləği ötən ilin müvafiq dövrü ilə müqayisədə 9.5 faiz, cari ilin əvvəli ilə müqayisədə isə 8.4 faiz artaraq 538.1 manat təşkil edib və ortaaylıq əməkhaqqının 49 faizinə bərabər olub.

Qeyd edilib ki, cari ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin maliyyələşdirilməsinə yönəldilmiş vəsaitin məbləği ötən ilin müvafiq dövrünə nisbətən 9.5 faiz artırılaraq 3 milyard 628 milyon 100 min manata çatdırılıb. Sərf olunmuş vəsaitin 97.8 faizini pensiya xərcləri təşkil edib.

## Azərbaycanda əhalinin sayı açıqlandı




**Azərbaycan əhalisinin sayı ilin əvvəlindən 16 833 nəfər və ya 0,2 faiz artaraq 2025-ci il iyul ayının 1-i vəziyyətinə 10 milyon 241 min 722 nəfərə çatıb.**

Musavat.com bu barədə Dövlət Statistika Komitəsinə istinadən xəbər verir.

Bildirilir ki, ölkə əhalisinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Qeyd edək ki, ölkə əhalisinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

Qeyd edək ki, ölkə əhalisinin 54,4 faizini şəhər, 45,6 faizini kənd sakinləri, 49,8 faizini kişilər, 50,2 faizini isə qadınlar təşkil edir.

## BTC ilə neftin nəqli 6%-ə yaxın azalıb

**Bu ilin yanvar-iyul aylarında Azərbaycanda neft kəmərləri ilə 21 553,9 min ton neft nəql edilib ki, bu da illik müqayisədə 5,3% azdır.**

Dövlət Statistika Komitəsindən İqtisadiyyat.az-a verilən məlumata görə, nəqletmənin 75%-i Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri (BTC) ilə həyata keçirilib və hesabat dövründə bu kəmər vasitəsilə 16 156,1 min ton neft ötürülüb ki, bu da illik müqayisədə 5,9% azdır.

Hesabat dövrü ərzində BTC kəməri ilə nəql edilmiş neftin 83,6%-i və ya 13 510,2 min tonunu Azərbaycanda hasil edilən neft (3,2% azalma), 16,4%-i və ya 2 645,9 min tonunu (17,7% azalma) isə Türkmənistan və Qazaxıstandan daxil olan neft təşkil edib.

Xatırladaq ki, ötən il Azərbaycanda neft kəmərləri ilə 38 752,1 min ton neft nəql edilib ki, bu da illik müqayisədə 2,5% azdır. Nəqletmənin 76%-i Bakı-Tbilisi-Ceyhan neft ixrac kəməri (BTC) ilə həyata keçirilib və hesabat dövründə bu kəmər vasitəsilə 29 470,9 min ton neft ötürülüb ki, bu da illik müqayisədə 2,4% azdır.

# YENİ MÜSAVAT

## Son səhifə

*N 144 (8754) 16 avqust 2025*

Avqust


## Bunları bilirsinizmi?

* Təyyarədə olanda saçlar iki dəfə sürətlə uzanır.
* Açıq gözlə asqırmaq mümkün deyil.
* Qlobal istiləşmə bəşəriyyəti pivədən məhrum edəcək.
* Mavi gözlü insanlar ağrıya daha həssasdırlar.
* Arılar dördə qədər saya bilirlər.
* İnsan bədənində 5 hovuzu təmizləyə biləcək miqdarda xlor var.
* Qulaq temepraturu həmişə bədən temperaturundan 1,5-2 dərəcə aşağıdır.
* Qarışqa öz çəkisindən 111 dəfə çox yük apara bilir.
* Braziliya növündən olan arılar turş bal hasil edirlər.
* Arı balı 4 əsr qalır, lakin xarab olmur.

# Tanzaniyada kişi xəbəri olmadan səkkiz il sinəsində bıçaqla yaşayıb



**Tanzaniyada kişi səkkiz il sinəsində bıçaqla yaşayıb və ancaq tibbi müayinə zamanı bundan xəbər tutub.**

Oxu.Az xəbər verir ki, bu barədə "Mirror" məlumat yayıb.

Qeyd olunub ki, Muhimbili Milli Xəstəxanasının həkimləri qeyri-adi halla qarşılaşıblar. 44 yaşlı kişi döş qəfəsində irinin olması şikayəti ilə xəstəxanaya müraciət edib. O, ağrı, öskürək və ya hərarət kimi simptomlardan şikayət etməyib və kişinin sağlamlıq göstəriciləri normal olaraq qalıb. Daha sonra həkimlər onun sinəsində bıçaq aşkar ediblər.

Müəyyən olub ki, xəstə on il əvvəl bir neçə bıçaq xəsarəti alıb. Bir müddət sonra onun yaraları sağalıb və irin görünənə qədər o, sinəsindəki bıçaqdan xəbərsiz yaşayıb. Rentgen müayinəsi göstərib ki, onun sinəsində böyük bıçaq tiyəsi ilişib qalıb. Bıçağın tiyəsi onun sağ kürək nahiyəsindən daxil olub, lakin həyati orqanlarına toxunmayıb.

Əməliyyat zamanı bıçaq çıxarılıb və irin təmizlənib. Xəstə bir gün reanimasiyada və 10 gün palatada yatıb. Həkimlər onun tam sağaldığını bildiriblər.



## Sakit okeanın dibində 15 metr hündürlüyündə "divar" tapıldı

**Sakit okeanın təxminən 2 040 metr dərinliyində elm adamları böyük bir geoloji struktura - 15 metr hündürlüyündə, 11 metr uzunluğunda və 4 metr enində olan nəhəng "divara" rast gəliblər.**

Oxu.Az bu barədə "IFLScience" portalına istinadla xəbər verir.

Kəşf Yer üzündəki ən böyük dəniz qoruğu olan Papahanaumokuakea ərazisində aparılan dərin sualtı tədqiqat zamanı edilib.

Ekspedisiya zamanı uzaqdan idarə olunan sualtı aparat vasitəsilə dəniz dibinin xəritələşdirilməsi aparılıb.

Birinci dalma zamanı alimlər böyük şüşə süngərlər və 1 metrdən çox ölçüdə olan "son dərəcə böyük" hidroid orqanizm aşkar ediblər. Digər diqqətəlayiq müşahidələr arasında dəniz donuzları, nadir meduzalar və ABŞ Hərbi Dəniz Qüvvələrinə məxsus batmış təyyarə gəmisi olub.

Lakin ən maraqlı tapıntı doqquzuncu dalma zamanı üzə çıxıb - vulkanik mənşəli, bərkimiş maqma təbəqəsindən yaranmış möhkəm daş "divar". Onun axına qarşı tərəfi "Hemicorallium" mərcan koloniyaları və iri "Primnoid" mərcanları ilə örtülüb.

# Düşüncə gücü ilə idarə olunan əlil arabası yaradılıb



**Rusiya Elmlər Akademiyasının Sankt-Peterburq Maşınqayırma Problemləri İnstitutunun və Sankt-Peterburq Dövlət Universitetinin alimləri insan təfəkkürünün gücü ilə idarə olunan robot əlil arabası yaradıblar. Oxu.Az xəbər verir ki, bu barədə institutun Mətbuat Xidmətindən məlumat verilib.**

Məlumata görə, yenilik kibernetik neyrobiologiya metodlarına əsaslanır.

Bildirilir ki, bilavasitə beyin siqnalları ilə idarə olunan robot əlil arabası xüsusi alqoritmlər sayəsində insanın nə vaxt sağa və nə vaxt sola hərəkət etmək istədiyini dəqiq müəyyən edir. Əlil arabası elektroensefaloqrafiya vasitəsilə beyin siqnallarına cavab verir. Əlil arabasını idarə etmək üçün şəxsin başına xüsusi baş geyimi ilə sensorlar bərkidilir.

## Alimlər insan saçından diş məcunu hazırlayacaqlar



**Londonn Kral Kollecinin tədqiqatçıları insan saçından hazırlanmış diş məcununun zədələnmiş dişləri ftor əsaslı məhsullardan daha yaxşı bərpa edə bildiyini müəyyən ediblər.**

Oxu.Az-ın verdiyi məlumata görə, bu barədə "Naked Science" nəşri xəbər verir.

Alimlərin sözlərinə görə, diş minası, sümüklərdən fərqli olaraq, öz-özünə bərpa olunmur, çünki onun tərkibində canlı hüceyrələr yoxdur. Araşdırmaya görə, insan saçında olan keratin maddəsi dişləri kariyesdən qoruya və hətta zədələnmiş minanı bərpa edə bilər.

Bioloqlar müəyyən ediblər ki, möhkəmliyinə görə yalnız xitindən sonra gələn keratin kalsium və fosfat ionları (ağız suyunda mövcud olan maddələr) ilə reaksiyaya girərək diş səthində mina ilə eyni funksiyaları və quruluşu olan qoruyucu kristal təbəqə yarada bilir.

Hazırda diş həkimləri mina qorunması üçün əsasən sintetik qatranlardan istifadə edirlər, lakin bu maddələr yalnız qısa müddət kosmetik effekt verir və prosedurların təkrar olunmasını tələb edir. Keratin üsulunun üstünlüyü isə onun ekoloji cəhətdən təmiz olmasıdır.

Qeyd edilir ki, keratin insan saçında, dırnağında, dərisində, həmçinin qoyun yununda, eləcə də məməlilərin iynə, buynuz və dırnaqlarında olur.

Belə məcunların iki-üç il ərzində satışa çıxacağı gözlənilir.

## Sankt-Peterburqda Leninin oxşarı döyülüb



**Sankt-Peterburqda yeniyetmələr Vladimir Leninə oxşarlığı ilə seçilən Fyodor adlı yaşlı kişiyə hücum ediblər. Bu barədə Rusiya İstintaq Komitəsinin şəhər qərargahından məlumat verilib.**

Hücum edənlər sosial şəbəkələrin monitorinqi zamanı müəyyən edilib. Zərərçəkmiş əvvəlcə yeniyetmələrə müqavimət göstərməyə çalışsa da, üzünə dəyən yumruqdan sonra yıxılıb və ayağa qalxa bilməyib.

Yeniyetmələrə qarşı Rusiya Cinayət Məcəlləsinin 213-cü maddəsinin 2-ci bəndi ilə (bir qrup şəxs tərəfindən xuliqanlıq) cinayət işi açılıb.

**Səhifəni hazırladı: SELCAN**


Baş redaktor: Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d

Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emil SALAMOĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114

SAYI: 1.500